№ 22 (5783), 2023-cü il

Qiyməti 40 qəpik

# ŞƏRQ

Günəş Şərqdən doğur!

www.sherg.az 8 fevral 2023-cü il (çərşənbə)

## Bakıda Türkiyədə zəlzələdən zərərçəkənlərə yardım toplanılır



**Bakıda Azərbaycan vətəndaşları Türkiyədəki zəlzələdən zərərçəkənlərə humanitar yardım toplayır.**

Yardımlar Bakı şəhəri, Babək prospekti 27, "Doğtaş" mebel mağazasında toplanır.

Yardımlar əsasən, zərərçəkənlərin ehtiyacları olan qış paltarları, gödəkçə, şalvar, əlcək, corab, çadır, yataq, yorğan, döşək, generator və təmizlik alətləri və s.-dən ibarətdir.



## Daha 100 müraciətə baxılıb

Əfv Məsələləri Komissiyasının iclası keçirilib

**Dünən Azərbaycan Prezidenti yanında Əfv Məsələləri Komissiyasının iclası keçirilib.**

İclasda əfvlə bağlı 100-dən çox müraciətə baxılıb. Bununla da iclaslarda baxılan məsələlərin sayı 400-ü ötüb. Ümumilikdə, komissiyanın 4 iclası ərzində əfvlə bağlı 400-dən artıq müraciətə baxılıb və müvafiq qərarlar verilib.



## Ermənistana bir şans da verilir

İrəvan hazırda Bakının yeni sülh təkliflərinə baxır

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan səfər etdiyi Berlində bildirib ki, Bakı İrəvana sülh müqaviləsi ilə bağlı yeni təkliflər göndərib və indi Ermənistan hakimiyyəti onlara baxır.**

Azərbaycan Xarici İşlər Nazirliyi ötən ilin mart ayında da İrəvana 5 baza prinsipinə əsaslanan təkiflərini göndərmişdi.

Həmin təkliflər dövlətlərin bir-birilərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması idi. Eyni zamanda dövlətlərin bir-birilərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi təkliflərdə əksini tapmışdı. Təkliflərdə sərhədinin delimitasiyası və demarkasiyası, nəqliyyat və kommunikasiyaların açılışı məsələsi də var idi.

(səh.2)



## "Qardaşımızın dəstəyi işimizi asanlaşdırır"

Süleyman Soylu yardım üçün Azərbaycana təşəkkür etdi

**Türkiyənin daxili işlər naziri Süleyman Soylu yardım üçün Azərbaycana təşəkkür edib.** Bunu Süleyman Soylu brifinqdə deyib.

"Hər çətin anımızda Azərbaycan yanımızda oldu. Azərbaycanın göstədiyi dəstək işimizi asanlaşdırır. Başqa ölkələrdən də yardımlar gəlir, lakin yardım göndərən ilk ölkə Azərbaycan oldu. Hazırda da onlar axtarış-xilasetmə işlərinə davam edir", - nazir qeyd edib.

Xatırladaq ki, zəlzələnin ilk günü - fevralın 6-da Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, Fövqəladə Hallar Nazirliyinin 420 nəfərdən ibarət çevik xilasetmə qüvvələri Türkiyəyə yola düşüb.

Fevralın 7-də isə ilkin olaraq mobil səhra hospitalı və 41 nəfərdən ibarət peşəkar tibbi və qeyri-tibbi heyət Türkiyəyə yola düşüb. Daha sonra isə nvöbəti təyyarə ilə dağıntılardan ziyan çəkmiş insanların yerləşdirilməsi üçün çadırlar, ədyal və qızdırıcılar, habelə mobil səhra hospitalı üçün 3 ədəd konteyner yola salınıb.

# Zəlzələnin üçüncü günü...

Türk milləti zamana qarşı mücadilə aparır



**Türkiyədəki zəlzələ qurbanlarının xatirəsi ilə əlaqədar qardaş ölkədə 7 günlük matəm elan olunub. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tviter hesabında paylaşım edib. Qeyd olunub ki, 13,5 milyon vətəndaş zəlzələnin təsirinə məruz qalıb. Dağıdıcı zəlzələdən sonra Adıyaman və Malatya şəhərlərində 5,3 bal gücündə növbəti zəlzələlər də qeydə alınıb. Zəlzələ yerin 8,13 kilometr dərinliyində baş verib.**

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, zəlzələnin təsirlərinin daha dəqiq təsbiti üçün PUA-ları da bölgəyə göndərilib: "Bu tarixi fəlakətin öhdəsindən gəlməyə çalışarkən yalan xəbərlər yaymağa cəhd edənlər də izlənilir. İndi onlarla mübarizə günü deyil. Vaxtı gələndə lazım olan addımlar sürətlə atılacaq". Türkiyə Prezidenti indiyə qədər 70 ayrı ölkə və 14 beynəlxalq təşkilatdan dəstək təklifi aldıqlarını vurğulayıb.**

**Ərdoğan qeyd edib ki, zəlzələ bölgəsinə 5000-ə yaxın tibbi personal göndərilib: "Dəniz Qüvvələrimizin 10 gəmisi, Hava Qüvvələrimizin isə 54 yük təyyarəsi axtarış-xilasetmə, təxliyə və yardım işlərində fəaliyyətdədir".**

(səh.3)

## AZAL Türkiyədə zəlzələ ilə əlaqədar biletlərin cərimәsiz qaytarılmasına başlayıb



**Zəlzələ nəticəsində aviaşirkətin xidmətlərindən yararlana bilməyən AZAL-ın Türkiyəyə və geri gələn sərnişinlərinə aviabiletlərin dəyərinin cərimə tətbiq edilmədən tam qaytarılmasına və ya ödənişsiz yenidən bronlaşdırılmasına icazə verilir.**

Bu barədə "Azərbaycan Hava Yolları" QSC-nin mətbuat xidmətindən bildirilib.

Məlumatda qeyd edilir ki, Türkiyənin aşağıdakı şəhərlərində baş vermiş zəlzələ səbəbindən:

Kahramanmaraş, Qaziantep, Şanlıurfa, Malatya, Diyarbəkir, Mardin, Batman, Ərzurum, Ərzincan, Sivas, Şırnak, Siirt, Van, Muş, Bingöl, Ağrı, Iğdır, Adana, Qars, Rizə, Trabzon, Giresun, Ordu, Samsun, Tokat, Merzifon, Kayseri, Adıyaman, Hatay, Elazığ, Nevşehir, Kastamonu və Sinop, Ankara, İstanbul, İzmir və Antalyanın bütün beynəlxalq hava limanlarına reys yerinə yetirən AZAL və "Buta Airways"in fevralın 6-dək əldə edilmiş uçuş tarixi fevralın 6-dan 21-dək olan aviabiletlərinin, 31 mart 2023-cü il daxil olmaqla, "involuntary" proseduru çərçivəsində geri qaytarılması və istənilən digər tarixlərə yenidən bron edilməsi təmin olunur.

## Media Reyestri "Elektron hökumət" portalına qoşulacaq



**"Elektron hökumət" portalına qoşulmalı olan informasiya sistemlərinin və ehtiyatlarının Siyahısı genişləndirilib.**

Nazirlər Kabineti bununla bağlı müvafiq qərar verib.

Qərara əsasən, "Media Reyestri" informasiya ehtiyatı bu siyahıya daxil edilib.



## Bakı sürüşkən torpağın üzərindədir

Memar: "Şəhər çoxmərtəbəli binalarla həddindən artıq çox yüklənib"

(səh.5)

## Bakının Qərb diplomatiyası vəziyyəti dəyişdi

Ermənistan iqtidarlı-müxalifətli reallığı qəbul etməlidir




**"Rusiyanın xarici işlər naziri Sergey Lavrov qəbuledilməz ifadələr işlədib, faktiki olaraq Ermənistanı işğalçı adlandırıb. Ancaq bir "əmma" var, Lavrov heç olmasa, yeddi rayonun işğalından danışır".**

Erməni politoloq Qagik Ambaryan deyib ki, indiki hökumət isə de-fakto buna bütün Qarabağı da əlavə edir. Onun sözünə görə, Ermənistanda təəssüf ki, hakimiyyətin istifadə etdiyi antierməni tezislərinə lazımi əhəmiyyət vermirlər: "Paşinyan hakimiyyəti Qarabağı təslim etməyə hazırdır. Bundan sonra Qarabağda yalnız Azərbaycanın əllərini öpməyə hazır olanlar qalacaq". Xatırladaq ki, bundan öncə Ermənistanın hakim "Vətəndaş Müqaviləsi" Partiyasının deputatı Qurgen Arsenyan demişdi ki, Ermənistanda 3 milyona yaxın erməni yaşayır və Qarabağdakı ermənilər naminə əhalini riskə atmaq olmaz...

(səh.4)



## Vardanyan Qarabağdan Moskvaya qaçıb

Rusiya Azərbaycanla mövqelərini yaxınlaşdırıb

**Erməni əsilli Rusiya vətəndaşı, milyarder Ruben Vardanyan Qarabağdan Moskvaya qaçıb.**

"Qraparak" erməni qəzetinin yazdığına görə, Vardanyan Rusiyaya, böyük ehtimalla, öz idarəçilərindən yeni təlimatlar almaq üçün yollanıb.

(səh.3)



# Prezident yeni səfirlərin etimadnaməsini qəbul edib

## İlham Əliyev: "Gələn ay Azərbaycan Qoşulmama Hərəkatının Zirvə Görüşünə ev sahibliyi edəcək"

**Azərbaycan Qoşulmama Hərəkatının üzvü olaraq bu təşkilatın təsisatlanması istiqamətində işlər aparır. Gələn ay Azərbaycan Qoşulmama Hərəkatının Təmas Qrupu çərçivəsində Zirvə Görüşünə ev sahibliyi edəcək. Bu fikirləri Azərbaycan Prezidenti İlham Əliyev Namibiyanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Klemens Xanduukeme Kaşuupulvanın etimadnaməsini qəbul edərkən söyləyib.**

Dövlətimizin başçısı deyib ki, BMT Təhlükəsizlik Şurasında islahatlar prosesi çərçivəsində Qoşulmama Hərəkatına sədr dövlətin Təhlükəsizlik Şurasında daimi üzv kimi rotasiya qaydasında təmsil olunması mexanizminin nəzərdən keçirilməsi Azərbaycanın təşəbbüsüdür. Bu xüsusda Qoşulmama Hərəkatına üzv dövlətlər arasında məsləhətləşmələrin aparılması vacibdir, bu cür yanaşmanın daha ədalətli olacaq.

Dünən Prezident İlham Əliyev Konqo Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri David Madukanın etimadnaməsini qəbul edib.

Səfir David Maduka etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev fevralın 7-də Namibiya Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Klemens Xanduukeme Kaşuupulvanın da etimadnaməsini qəbul edib.

Səfir Klemens Xanduukeme Kaşuupulva etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı bildirdi ki, Namibiya ilə Azərbaycan arasında müxtəlif sahələrdə əlaqələrin intensivləşdirilməsi üçün imkanlar mövcuddur. Azərbaycan Prezidenti qeyd etdi ki, siyasi sahədəki əlaqələrimizə uyğun olaraq iqtisadi, ticari və digər sahələrdə də əməkdaşlığımızın genişləndirilməsi imkanlarına baxılmalıdır.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatının 2019-cu ildə Azərbaycanda keçirilmiş Zirvə Görüşündə Namibiyanın dövlət başçısının iştirakını məmnunluqla xatırlatdı. Həmçinin Qoşulmama Hərəkatının sədri kimi Azərbaycana Namibiyanın göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasında islahatlar prosesi çərçivəsində Qoşulmama Hərəkatına sədr dövlətin Təhlükəsizlik Şurasında daimi üzv kimi rotasiya qaydasında təmsil olunması mexanizminin nəzərdən keçirilməsinin Azərbaycanın təşəbbüsü olduğunu vurğuladı. Bu xüsusda Qoşulmama Hərəkatına üzv dövlətlər arasında məsləhətləşmələrin aparılmasının vacibliyini bildirdi, bu cür yanaşmanın daha ədalətli olacağını qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatının üzvü olaraq bu təşkilatın təsisatlanması istiqamətində işlər apardığını vurğuladı. Gələn ay Azərbaycanın Qoşulmama Hərəkatının Təmas Qrupu çərçivəsində Zirvə Görüşünə ev sahibliyi edəcəyini dedi.

Prezident İlham Əliyev Vyetnam Sosialist Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Danq Min Xoyun etimadnaməsini də qəbul edib.

Səfir Danq Min Xoy etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Prezident İlham Əliyev Vyetnama səfərini və keçirdiyi görüşləri məmnunluqla xatırladı, bu səfərin ikitərəfli əlaqələrin inkişafına mühüm töhfə verdiyini bildirdi. Dövlətimizin başçısı Azərbaycan ilə Vyetnam arasında ikitərəfli səviyyədə və beynəlxalq təşkilatlar çərçivəsində çoxtərəfli əsasda yaxşı əməkdaşlığın həyata keçirildiyini qeyd etdi. Prezident İlham Əliyev 2020-ci ildə Vətən müharibəsi zamanı beynəlxalq təşkilatlarda, xüsusilə BMT Təhlükəsizlik Şurasında Azərbaycana qarşı müxtəlif bəyanatların qəbul edilməsi istiqamətində səylər göstərilərkən onların qəbul olunmasının qarşısının alınmasında Vyetnamın Qoşulmama Hərəkatının üzv dövləti və BMT Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü kimi Qoşulmama Hərəkatının digər üzvləri ilə birlikdə ölkəmizlə həmrəylik nümayiş etdirməsinin Azərbaycan tərəfindən yüksək qiymətləndirildiyini diqqətə çatdırdı.

Dövlətimizin başçısı BMT Təhlükəsizlik Şurasında islahatların aparılmasının vacibliyi məsələsinə də toxundu, bu xüsusda Qoşulmama Hərəkatının sədr dövlətinin BMT Təhlükəsizlik Şurasında rotasiya qaydasında daimi üzv kimi təmsil olunmasının zəruriliyini bildirdi. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyinin 2023-cü ildə başa çatacağını vurğulayan dövlətimizin başçısı dedi ki, əsas məqsəd Azərbaycandan sonra sədrliyi öz üzərində götürəcək üzvlərə şamil olunacaq işlək mexanizmin təsbit edilməsidir. Belə bir yanaşma sırf beynəlxalq ədaləti əks etdirəcək. Dövlətimizin başçısı, həmçinin gələn ay Qoşulmama Hərəkatının Təmas Qrupu çərçivəsində zirvə görüşünün Azərbaycanda keçiriləcəyini dedi.

Azərbaycan ilə Vyetnam arasında təhsil sahəsində çox yaxşı əlaqələrin olduğunu vurğulayan Prezident İlham Əliyev hələ sovet dövründə çoxlu sayda vyetnamlı tələbənin ölkəmizdə təhsil aldığını bildirdi. Dövlətimizin başçısı Vyetnama səfəri zamanı Azərbaycandakı ali təhsil müəssisələrinin bu ölkədən olan məzunları ilə görüşdüyünü, onları Azərbaycana səfərə dəvət etdiyini xatırladı və onların bu səfəri həyata keçirdiklərini məmnunluqla qeyd etdi.

Prezident İlham Əliyev Azərbaycanın işğaldan azad olunmuş ərazilərində bərpa-quruculuq layihələrinin həyata keçirilməsində Vyetnam şirkətlərinin də iştirakının mümkünlüyü məsələsinə də toxundu, həmin şirkətləri bu işlərdə iştiraka dəvət etdi.

Azərbaycana səfir təyin olunmaqdan məmnunluğunu ifadə edən Danq Min Xoy Vyetnam Kommunist Partiyasının Baş katibi Nquyen Fu Tronqun salamlarını dövlətimizin başçısına çatdırdı.

İlham Əliyev fevralın 7-də Laos Xalq Demokratik Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Vilavan İyapohenin etimadnaməsini qəbul edib.

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Sonra Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı ölkələrimiz arasında yaxşı siyasi münasibətlərin olduğunu bildirdi, iqtisadi-ticari əlaqələrin genişləndirilməsi üçün səylərin artırılmasının vacibliyinə toxundu. Prezident İlham Əliyev bu xüsusda müxtəlif səviyyələrdə qarşılıqlı səfərlərin, həmçinin turizm imkanlarının və biznes strukturları arasında birbaşa əlaqələrin yaradılmasının vacibliyini vurğuladı.

Dövlətimizin başçısı Azərbaycanla Laos arasında həm BMT, həm də Qoşulmama Hərəkatı çərçivəsində yaxşı əlaqələrin olduğunu və beynəlxalq təşkilatlarda qarşılıqlı dəstəyin önəmini qeyd etdi. Prezident İlham Əliyev BMT-dəki islahatlar çərçivəsində Qoşulmama Hərəkatına sədr dövlətin rotasiya əsasında BMT Təhlükəsizlik Şurasında təmsil olunması ilə bağlı Azərbaycanın təklifinin əhəmiyyətini vurğuladı.

Səfir Laos Prezidenti Thonqlun Sisulitin salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyevə salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Laos Prezidentinə çatdırmağı xahiş etdi.

Ölkəmizdə olmaqdan məmnunluğunu bildirən səfir Bakının gözəlliyinin onu heyran etdiyini dedi. Sovet dövründə çoxlu sayda laoslu tələbənin Azərbaycanda təhsil aldığını qeyd edən Vilavan İyapohe hazırda onların Laosda müxtəlif sahələrdə uğurla fəaliyyət göstərərək ölkənin inkişafına töhfə verdiklərini bildirdi.

Səfir ölkələrimiz arasında iqtisadi və turizm sahələrində əlaqələrinin inkişaf etdirilməsi üçün yaxşı imkanların olduğunu diqqətə çatdırdı.

## Azərbaycan və Birləşmiş Ərəb Əmirliklərinin sürücülük vəsiqələri qarşılıqlı tanınacaq



**Azərbaycan və Birləşmiş Ərəb Əmirliklərinin sürücülük vəsiqələri qarşılıqlı olaraq tanınacaq.**

Bu, Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sabah keçiriləcək iclasının gündəliyinə daxil edilən "Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi arasında sürücülük vəsiqələrinin qarşılıqlı tanınması və dəyişdirilməsi haqqında" Anlaşma Memorandumunun təsdiq edilməsi barədə" qanun layihəsində əksini tapıb.

Layihəyə əsasən, Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Daxili İşlər Nazirliyi arasında sürücülük vəsiqələri qarşılıqlı tanınacaq və dəyişdiriləcək.

## Əli Əsədov ilə Fuat Oktay arasında telefon danışığı olub





**Fevralın 7-də Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov ilə Türkiyə Respublikasının Vitse-prezidenti Fuat Oktay arasında telefon danışığı olub.**

Nazirlər Kabinetindən verilən xəbərə görə, telefon danışığı əsnasında Türkiyənin cənub-şərqində baş vermiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı ilə bağlı Fuat Oktaya dərin hüznlə başsağlığı verilib, yaralananlara və xəsarət alanlara şəfa dilənib.

Fuat Oktay bu çətin məqamda qardaş Azərbaycanın Türkiyə ilə həmrəyliyini yüksək qiymətləndirib, təbii fəlakətin nəticələrinin aradan qaldırılması məqsədilə ölkəmiz tərəfindən davamlı şəkildə göstərilən yardıma, zəlzələ bölgəsində həyata keçirilən axtarış xilasetmə əməliyyatlarına dəstəyə görə minnətdarlığını bildirib.

## Gələcəkdə orta məktəblər akkreditasiyadan keçirilə bilər

**Gələcəkdə orta məktəblər də akkreditasiyadan keçirilə bilər.**

APA xəbər verir ki, bunu Təhsildə Keyfiyyət Təminatı Agentliyinin İdarə heyətinin sədri Ülkər Səttarova "Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması Qaydaları"na edilmiş dəyişikliklə bağlı keçirilən mətbuat konfransında deyib. O bildirib ki, orta məktəblərdə tədrisin keyfiyyəti ilə bağlı "Məktəb inspektoru" layihəsi çərçivəsində müxtəlif səviyyəli məktəblərdə monitorinqlər aparılıb: "Bunun əsasında hesabatlar hazırlanaraq çatışmayan tərəflərlə bağlı məktəb rəhbərliyinə göstəriş verilir. Lakin bəzən görürük ki, göstərilən problemlər aradan qaldırılmır. Bütün bunlar akkreditasiya prosesi üçün hazırlıqdır".

## Ukraynada hərbi vəziyyət daha 90 gün uzadılıb



**Ukrayna Ali Radası ölkədə hərbi vəziyyətin müddətini 90 gün uzadıb.**

APA xəbər verir ki, bu barədə Ukrayna Ali Radasının mətbuat xidməti məlumat yayıb. Bildirilib ki, bu il 19 fevraldan Ukraynada hərbi vəziyyətin müddəti 90 gün uzadılır və həmçinin ümumi səfərbərliyin də müddəti artırılır.

# Ermənistana bir şans da verilir

## İrəvan hazırda Bakının yeni sülh təkliflərinə baxır



"Paşinyan Bakının yeni təkliflərini qəbul edərsə, bölgə sülhə yaxınlaşar və real əməkdaşlıq başlayar"

**Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan səfər etdiyi Berlində bildirib ki, Bakı İrəvana sülh müqaviləsi ilə bağlı yeni təkliflər göndərib və indi Ermənistan hakimiyyəti onlara baxır. Azərbaycan Xarici İşlər Nazirliyi ötən ilin mart ayında da İrəvana 5 baza prinsipinə əsaslanan təkiflərini göndərmişdi.**

Həmin təkliflər dövlətlərin bir-birilərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması idi. Eyni zamanda dövlətlərin bir-birilərinə qarşı ərazi iddialarının olmamasının qarşılıqlı təsdiqi və gələcəkdə belə bir iddianın qaldırılmayacağına dair hüquqi öhdəliyin götürülməsi təkliflərdə əksini tapmışdı. Təkliflərdə sərhədinin delimitasiyası və demarkasiyası, nəqliyyat və kommunikasiyaların açılışı məsələsi də var idi.

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu bildirib ki, rəsmi Bakının göndərdiyi yeni təkliflər də böyük ehtimalla bu 5 baza prinsipinə əsaslanıb. Ekspertə görə, bu təkiflərə kiçik əlavələrin olunması istisna deyil:** "Əlavələr 5 baza prinsipinin mahiyyətini dəyişdirməyib. Ötən il İrəvan bu təkliflərə müsbət cavab vermədi və bununla özünə ziyan etdi. Çünki İrəvan təklifləri qəbul etmədiyini bildirdikdən təxminən 6 ay sonra iki ölkənin təmas xəttində döyüşlər baş verdi və Azərbaycan Ordusu strateji yüksəklikləri ələ keçirməklə mövqelərini gücləndirdi. Ermənistan hakimiyyətinə yeni bir şans verilir. Ermənistanın Baş naziri Nikol Paşinyan onsuz da etiraf edib ki, Qarabağ yükünü daşıya bilmir. Paşinyan Bakının yeni təkliflərini qəbul edərsə, bölgə sülhə yaxınlaşar və real əməkdaşlıq başlayar. Paşinyanın Bakının təkliflərini qəbul etməyə heç nə mane olmur. "Qarabağ klanı"nın timsalında Ermənistan müxalifəti zəifdir, lidersizdir. Buna baxmayaraq, Nikol Paşinyanın ötən dəfə olduğu kimi rəsmi Bakının təkiflərinə özünün məntiqsiz təkliflərini əlavə etməsi ehtimalı yüksəkdir. Belə olan halda yenə nəticə əldə olunmayacaq".

**İsmayıl Qocayev**





# Azərbaycana əlavə minaaxtaran itlər və siçovullar gətiriləcək

## Şuşada ANAMA, Aİ və BMTİP arasında sənəd imzalanıb

**Şuşada Avropa İttifaqı və BMT-nin İnkişaf Proqramı və ANAMA Azərbaycanda məcburi köçkünlərin təhlükəsiz qayıdışının dəstəklənməsi məqsədilə yeni layihə imzalayıb.**

Layihə üçün 4,25 milyon avro maliyyə töhfəsi verən Avropa İttifaqı bu günə qədər Azərbaycanda minatəmizləmə əməliyyatlarına ən böyük dəstək verən beynəlxalq təşkilatdır. Layihə geri qayıdan 33 minə yaxın ailənin özlərini daha təhlükəsiz hiss etmələrinə və yaşayış vasitələrini bərpa etmələrinə kömək edəcək. Minaların və partlamamış hərbi sursatların (PHS) mövcudluğu məcburi köçkünlərin təhlükəsiz və könüllü qayıdışının qarşısını alır. Bunu nəzərə alaraq Aİ, ANAMA və BMTİP öz səylərini mina və PHS-ləri təmizləyən cavab qruplarını hazırlamaq, təchiz etmək və yerləşdirmək istiqamətində birləşdirib. Layihə çərçivəsində Azərbaycanda ilk qadın minatəmizləmə qruplarının yaradılması da nəzərdə tutulur. Məcburi köçkünlər layihədən faydalanmaqla yanaşı, həm də layihədə fəal iştirak edəcəklər. Yeni minatəmizləmə qrupları yerli icmalarla sıx əməkdaşlıq edəcək və qeyri-hökumət təşkilatlarının minatəmizləmə fəaliyyətlərində iştirakı təşviq ediləcək.

**ANAMA-nın İdarə Heyətinin sədri Vüqar Süleymanov bildirib ki, minatəmizləmə Agentliyi və BMT-nin İnkişaf Proqramının Azərbaycan Nümayəndəliyi arasında məcburi köçkünlərin təhlükəsiz qayıdışını təmin etmək məqsədilə ANAMA-nın instusional inkişafına imza atılıb:** "Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir. Azərbaycana əlavə minaaxtaran itlər və siçovullar gətiriləcək".

Vüqar Süleymanov bildirib ki, Azərbaycan ərazisinə 1 milyondan çox mina yerləşdirilib. Bunun qurbanları mülki əhalidir. Onun sözlərinə görə, 2020-ci ilin noyabr ayından Azərbaycanın işğaldan azad edilmiş 64 min 686 hektar ərazisi minalardan təmizlənib. Agentlik tərəfindən 27 min 557 piyada əleyhinə mina, 13 716 tank əleyhinə mina və 38 min 976 PHS aşkar edilərək zərərsizləşdirilib və bu proses davam edir: "Bu minalar əhalinin yaşayış yerlərinə yaxın yerlərdə, bağlarda, evlərin həyətində basdırılıb. Bizim prioritetimiz bu ərazilərin tamamilə minalardan təmizlənməsi və vətəndaşlarımızın öz evlərinə təhlükəsiz dönüşünü təmin etməkdir". V.Süleymanov deyib ki, bir sıra beynəlxalq təşkilatlar Azərbaycana minatəmizləmə prosesində dəstək verir: "Xüsusilə mən BMT İnkişaf Proqramını qeyd etmək istərdim ki, onlar ANAMA-nı ləvazimatlarla, treninqlərlə və s. dəstəkləyib".

ANAMA sədri qeyd edib ki, yeni layihə Agentliyin əməliyyat və institusional imkanlarını daha da genişləndirəcək: "Beynəlxalq cəmiyyəti bu prosesdə bizə dəstək verməyə çağırırıq. Bu prosesdə bizə dəstək verən Avropa İttifaqına, Britaniyadan olan tərəfdaşlarımıza təşəkkür edirəm". Onun sözlərinə görə, layihə çərçivəsində Azərbaycanda yeni minatəmizləmə komandasının yaradılması nəzərdə tutulur: "Bu komanda qeyri-hökumət təşkilatının nəzdində fəaliyyət göstərəcək. Layihə çərçivəsində Azərbaycanda ilk qadın minatəmizləmə qrupunun yaradılması nəzərdə tutulub. Bundan başqa, Azərbaycana əlavə olaraq minaaxtaran itlər və siçovullar gətiriləcək və minatəmizləmə əməliyyatına qatılacaq. Eyni zamanda informasiya sisteminin təkmilləşdirilməsi də layihə çərçivəsində həyata keçiriləcək. Layihənin müddəti 18 ay nəzərdə tutulub, amma ümid edirik ki, layihə davamlı olacaq".

**İsmayıl**



# Zəlzələnin üçüncü günü...

## Türk milləti zamana qarşı mücadilə aparır





**Türkiyədəki zəlzələ qurbanlarının xatirəsi ilə əlaqədar qardaş ölkədə 7 günlük matəm elan olunub. Bu barədə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tviter hesabında paylaşım edib.**

Qeyd olunub ki, 13,5 milyon vətəndaş zəlzələnin təsirinə məruz qalıb. Dağıdıcı zəlzələdən sonra Adıyaman və Malatya şəhərlərində 5,3 bal gücündə növbəti zəlzələlər də qeydə alınıb. Zəlzələ yerin 8,13 kilometr dərinliyində baş verib.

**"70 ölkə və 14 beynəlxalq təşkilatdan dəstək təklifi almışıq"**

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib ki, zəlzələnin təsirlərinin daha dəqiq təsbiti üçün PUA-ları da bölgəyə göndərilib: "Bu tarixi fəlakətin öhdəsindən gəlməyə çalışarkən yalan xəbərlər yaymağa cəhd edənlər də izlənilir. İndi onlarla mübarizə günü deyil. Vaxtı gələndə lazım olan addımlar sürətlə atılacaq". Türkiyə Prezidenti indiyə qədər 70 ayrı ölkə və 14 beynəlxalq təşkilatdan dəstək təklifi aldıqlarını vurğulayıb.

Ərdoğan qeyd edib ki, zəlzələ bölgəsinə 5000-ə yaxın tibbi personal göndərilib: "Dəniz Qüvvələrimizin 10 gəmisi, Hava Qüvvələrimizin isə 54 yük təyyarəsi axtarış-xilasetmə, təxliyə və yardım işlərində fəaliyyətdədir".

**Türkiyəli millət vəkili zəlzələdə həlak olub**

Türkiyənin hakim Ədalət və İnkişaf Partiyasının (AK Parti) deputatı Yakup Taş zəlzələ nəticəsində həlak olub. Yakup Taşın cəsədi dünən dağıntılar altından çıxarılıb. O, Türkiyə Böyük Millət Məclisində (TBMM) Adıyaman şəhərini təmsil edirdi.

**Səfir dağıntılar altında qaldığı deyilən 4 azərbaycanlı tələbənin taleyinə aydınlıq gətirib**

Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov "APA"ya açıqlamasında deyib ki, Türkiyədə zəlzələ baş verən andan daxil olan zənglərin araşdırılmasına başlanılıb. Səfir qeyd edib ki, zəlzələ baş verən bölgələrdə təhsil alan tələbələrin sayı çoxdur: "Artıq ikinci zəlzələ baş verəndə biz həmin bölgələrdə olan tələbələrin sayını müəyyənləşdirməyə və onlardan dağıntılar arasında qalanların olub-olmamasını dəqiqləşdirməyə başlamışdıq. Bizə daxil olan məlumatlardan Malatyada 4 tələbənin dağıntılar arasında qaldığı deyildi. Biz onların ad və soyadını dəqiqləşdirərək bütün xəstəxanalarda axtarış apardıq. Amma bu günə qədər hələ onlarla bağlı bir məlumat yoxdur. Biz yenə araşdırırıq. Türkiyənin rəsmi qurumlarının hər gün yaydığı ölən və xəsarət alanlar arasında da həmin tələbələrin adı çıxmayıb. Nəzərinizə çatdırım ki, bu məlumatlar hər gün yenilənir. Araşdırmalarımız davam edir".

**Türkiyədə zəlzələ ilə bağlı təxribat xarakterli yazılar yazan 63 nəfər aşkar edilib**

Türkiyə Təhlükəsizlik Baş İdarəsi (EGM) zəlzələdən sonra sosial media platformalarında təxribat xarakterli yazıların olduğu aşkarlanan hesabların sayını açıqlayıb. Qeyd olunub ki, həmin hesabların sayı 63-ə yüksəlib.

Paylaşılan yalan məlumatları yayan şəxslər polis bölmələrinə aparılıb.

**"Azərbaycan hər zaman olduğu kimi, Türkiyənin yanındadır"**

Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov Türkiyədə baş verən zəlzələdə həlak olanlarla bağlı başsağlığı verib: "Bu gün qardaş Türkiyədə böyük insan tələfatı ilə nəticələnən zəlzələ xəbəri bizi dərindən sarsıtdı. Bu dəhşətli zəlzələdə həlak olanlara Allahdan rəhmət, yaralılara şəfa diləyirik. Azərbaycan hər zaman olduğu kimi, bu çətin günlərdə də Türkiyənin yanındadır".

**"Zəlzələdən sağ çıxdığım üçün özümü şanslı sayıram"**

**Azərbaycan millisinin və "Adana İdman Yurdu" klubunun qadın futbolçusu Kamilla Məmmədova Türkiyədə baş vermiş zəlzələ barədə danışıb. Deyib ki, dağıntılar altında qalanlar, ölən və yaralananlar çoxdur. Vəziyyət həqiqətən pisdir:** "Sağ qaldığım üçün özümü şanslı sayıram. Hələ də şokdan ayıla bilməmişəm". 26 yaşlı sol cinah müdafiəçisi bildirib ki, hadisə vaxtı yuxuda olublar: "Yeraltı təkanlar səhərə yaxın baş verdi. Adətən gecə oyanan deyiləm. Amma bu dəfə nəsə hiss etdim və qəflətən oyandım. Birinci dolabın qapıları tərpənməyə başladı. Düşündüm ki, yəqin, küləyə görədir. Ona görə fikir vermədim və yenidən yatdım. Sonra daha güclü təkan hiss etdim. Bu vaxt çarpayı yerindən tərpəndi və məni silkələdi. Dərhal yerimdən qalxıb, qızları oyatdım. Otağın divarlarının çat verdiyini gördük. Bütün insanlar çöldə idi. Biz də bayıra qaçdıq". Onun sözlərinə görə, yeraltı təkanlar ciddi dağıntılara səbəb olub: "Bir saat çöldə qaldıqdan sonra qaldığımız klub evinə qayıtdıq. Sonradan yeni təkanlar olsa da, güclü deyildi. Sonuncu təkanı ötən gün günorta saatlarında hiss etdik. İnsanları yenidən çölə çıxardılar. Komandamızın legionerlərini qaldıqları hoteldən bizim yanımıza gətirdilər. Bizdə birmərtəbəli evdir, bina deyil. Ona görə həmin evlərə ciddi ziyan dəymədi. Yaxınlığımızdakı binaların çoxu yerlə-yeksan oldu. Şükürlər olsun, komanda yoldaşlarımızdan dağıntılar altında qalan yoxdur".

*Şok yaşadığını etiraf edən Məmmədova ilk dəfə belə bir halla üzləşdiyini söyləyib:* "Ümumiyyətlə, hamı üçün gözlənilməz oldu. Çünki zəlzələdən öncə hər şey normal idi".

**İsmayıl**

# Regiondan təhsil almağa gələnlərin sayı azalır

## Yataqxana və kirayə mənzil ciddi problemdir

**Təhsil Tələbə Kredit Fondunun İdarə Heyətinin sədri Araz Paşayev ali məktəblərə qəbul olanlar arasında region sakinlərinin azlıq təşkil etməsi probleminə toxunub. A.Paşayev bildirib ki, ali məktəblərə qəbul olanlar arasında paytaxt sakinləri üstünlük təşkil edir.**

Onun sözlərinə görə, hər il regionlardan ali məktəblərə qəbul olanların sayında azalma müşahidə edilir. A.Paşayev əsas səbəb kimi regionlarda müəllim çatışmazlığını göstərib: "Regionlar arasında Oğuz, Qəbələ, Gədəbəy rayonlarından qəbul sayı yüksəkdir. Amma ümumi qəbul sayının aşağı düşməsi müəllim çatışmazlığı ilə əlaqədardır. Məsələn, Şəkinin Kiş kəndində bir qız həkim olmaq istəyirdi, sınaq imtahanlarında 500-dən çox bal toplayırdı. Tibb Universitetinə qəbul olub ödənişsiz təhsil almaq üçün azı 650 bal lazımdır. O xanım kənddə kimya müəllimi olmadığı üçün hazırlaşa bilmirdi. Fitri istedadlı, maddi vəziyyəti aşağı olan savadlı şagirdlər var. Biz bu kreditlər vasitəsilə onların təhsil almasına şərait yaradır, nəticələrin yaxşılaşdırılmasına çalışırıq".

**Regionlardan paytaxta ali təhsil ardınca gələnlərin say azlığı yalnız müəllim çatışmazlığıyla bağlıdırmı? Suala cavabında təhsil problemləri üzrə ekspert Elçin Əfəndi səbəbin bir deyil, bir neçə olduğunu bildirdi:**

- Müəllim çatışmazlığı səbəblərdən yalnız biridir. Ali təhsil ocaqları əsasən paytaxtda cəmlənib. Mərkəzləşmə Bakı şəhərindədir. Bu amil Bakı və Bakıətrafı qəsəbə və bölgələrdə yaşayanların ali təhsil alması üçün daha əlverişli şərait yaradır. Mərkəzdə və mərkəzə yaxın bölgələrdə məskunlaşanların hazırlıq kurslarında iştirakı üçün də daha münbit şərait var. Hazırlıq kursları da çoxdur, tədris mərkəzləri də. Ucqar yerlərdə isə məlum məsələdir ki, imkanlar məhduddur. Səbəblərdən biri yuxarı siniflərdə şagirdlərin təhsildən yayınmasıdır. Xüsusilə cənub, qərb və Aran bölgəsində qız uşaqları valideynləri tərəfindən erkən nikaha cəlb edilir. Bu problem bütün ölkəni əhatə edir, amma cənub bölgəsində daha qabarıqdır. Bunun qarşısı hələ ki, heç bir vasitəylə alınmır. Bu gedişlə qarşıdakı illərdə qız uşaqları arasında ali təhsillilərin faizi çox aşağı düşəcək. Həmçinin oğlan uşaqları da IX sinifdən orta məktəbi tərk edir, bəziləri kolleclərə daxil olur, peşə təhsilinə istiqamətlənirlər. Peşə təhsili yönümlü kolleclərdə oğlanların sayı daha çoxdu. Ümumiyyətlə, istər qızlar, istərsə də oğlanlar arasında kolleclərə qəbulda artım müşahidə edilir. Bunun da səbəbləri var. Valideyn düşünür ki, X-XI siniflərdə övladını normal şərtlər daxilində oxuda bilməyəcək. Çünki repetitor qəbuluna getmək üçün əlavə vəsait lazım olacaq. Məktəbin digər əlavə xərclərindən qurtulmağın yolunu IX sinifdən orta təhsildən ayrılmaqda görürlər. Başqa bir səbəb yataqxana və kirayə mənzil problemidir. Əksər ali məktəblərin yataqxanası yoxdur deyə regiondan gələnlər məcburdur mənzil kirayələsin. Kirayə qiymətləri baha olduğu üçün hər ailənin buna maddi imkanı çatmır. Təkcə kirayə pulu deyil, ali təhsil alan gəncin başqa maddi ehtiyaclarının ödənməsi də çətindir. Əgər məzun ödənişli ixtisasa qəbul olunubsa, 3 min - 3500 manat ödəniş edilməlidir. Çoxunun buna maddi imkanı çatmır. Kolleclərdə ödənişli təhsil 500-800 arası dəyişir. Övladının evdən, ailədən kənarda qalmasını istəməyən, bunu qəbul etməyən valideynlər də var. Bütün bu səbəblər cəm halında ali təhsil ocaqlarında regionlardan gələn tələbələrin sayının azalmasına gətirib çıxarır.



Bu gedişlə qarşıdakı illərdə qız uşaqları arasında ali təhsillilərin faizi çox aşağı düşəcək

**Məlahət Rzayeva**

# Vardanyan Qarabağdan Moskvaya qaçıb

## Rusiya Azərbaycanla mövqelərini yaxınlaşdırıb



**Erməni əsilli Rusiya vətəndaşı, milyarder Ruben Vardanyan Qarabağdan Moskvaya qaçıb. Trend xəbər verir ki, "Qraparak" erməni qəzetinin yazdığına görə, Vardanyan Rusiyaya, böyük ehtimalla, öz idarəçilərindən yeni təlimatlar almaq üçün yollanıb.**

Nəşrdə buna qədər erməni separatçılarının başçısı Araik Arutyunyanın da təqribən on gün əvvəl "müxtəlif hökumət səviyyələrində görüşlər keçirmək üçün" Moskvaya getdiyi və 3-4 gün əvvəl Qarabağa qayıtdığı qeyd olunub.

"Qraparak"ın yazdığına görə, separatçılar artıq 58 gündür azərbaycanlıların Qarabağın təbii resurslarının talan edilməsinə qarşı dinc aksiyasının davam etdiyi Laçın yolu ətrafındakı vəziyyətlə bağlı Rusiyanın mövqeyini daha aydın başa düşmək istəyirlər.

Məqalədə, həmçinin, qeyd olunub ki, separatçılar öz məqsədlərinə çatmaq üçün Rusiyadan hansı xeyir əldə edəcəklərini daha aydın başa düşmək istəyir və Moskvada kiminlə işləyəcəklərinə qərar verməyə çalışırlar.

Sual yaranır ki, "Rubik" Qarabağı tərk edərkən rus sülhməramlılarının daşıdığı badımcan və çuğundurların arasında necə gizlənib? Yoxsa, o, qadın paltarı geyinib?

Bir şey aydındır ki, qaçıb gedən milyarder Qarabağa bir daha qayıtmayacaq, əgər qayıtsa, bu, ona çox baha başa gələcək.

**Siyasi şərhçi Aqşin Kərimov deyib ki, Vardanyan Rusiya sülhməramlılarına məxsus yük avtomobilində Ermənistana aparılıb və oradan Moskvaya yola salınıb:** "İddia doğrudursa, bir məqam üzərində diqqəti cəmləmək lazımdır. Bir neçə gün öncə Qarabağdakı separatçıların "başı" Araik Arutyunyan Moskvaya getmişdi. Deməli, Vardanyan Qarabağdan qaçıbsa, Rusiya Azərbaycanla mövqelərini yaxınlaşdırıb. Lakin Arutyunyan üzərindən manipulyasiyalar quracaq. Arutyunyan ümumiyyətlə həm Bakıya, həm də Moskvaya lazımdır".

**İsmayıl**

# "Space"ni böhrandan çıxardı və getdi

## Müşfiq Hətəmovun arxasınca yaxşı danışdılar



**"Space"in direktoru işdən çıxarılıb. Müşfiq Hətəmovun yerinə məşhur "Bakılı oğlanlar" ŞHK-nın sabiq üzvü Vado Korovin gətirilib.**

**Vado Korovin 1972-ci il avqustun 29-da Bakıda ziyalı ailəsində anadan olub. O, uzun müddət "Şən və Hazırcavablar" klubunda - "Bakılı Oğlanlar" komandasında təmsil olunub.**

Vado Karovin "Lider" və ATV telekanallarında müxtəlif vəzifələrdə çalışıb.

Qeyd edək ki, Müşfiq Hətəmov 2021-ci ilin may ayında bu posta təyin olunmuşdu.

**Aparıcı Turan İbrahimov paylaşım edərək M. Hətəmovun "Space" üçün çox əziyyətinin olduğunu bildirib:** "Space TV" reanimasiyada idi, beyin ölümü çoxdan baş vermişdi, süni nəfəs aparatına qoşulmuşdu. Özüm də daxil bütün televiziyaçılar reallığı bildiyimiz və məsələyə məhz televiziyaçı kimi baxdığımızdan, bu kanalı xilas etmək üçün külli miqdarda vəsaitə ehtiyac olduğunu düşünürdük. Haqlı idik. Amma Müşfiq Hətəmov gəldi, kənar dəstək olmadan vəziyyəti nəzarətə götürdü. Borcları bağladı, ən fundamental, təxirəsalınmaz praktik- texniki addımları atdı, mümkün olan bütün dəyişiklikləri etdi və pis- yaxşı, digər özəl televiziyalardan fərqlənməyən, yeni proqram siyasəti tərtib etdi. Hazırda "Space TV" minimal maliyyə imkanları ilə ölkənin ən reytinqli dördüncü kanalıdır. Böhran menecmenti haqqında bildiyiniz hər şeyi unudun. Hətta deyərdim ki, "böhran dövründə ağdamlı yanaşması" başlıqlı treninqlər təşkil edin, Müşfiq Hətəmovu da çıxışçı kimi dəvət edin. Düzdü, bunun üçün vaxtı olmayacaq. Bundan sonra daha ağır rejimdə çalışacaq, amma siz yenə də cəhd edin. Yolun hər zaman açıq olsun, etibarlı insan!".

**"Qanun" Nəşriyyatının direktoru Şahbaz Xuduoğlu isə hesab edir ki, Müşfiq Hətəmov kimi yaradıcı, qurucu insanların sayı çox azdır:** "Birinin istedadı var, zəhməti yox, digərinin zəhməti çoxdur, məhsulu yox. Müşfiq işlə bağlı bütün keyfiyyətləri özündə tamlayan şəxsdir. Kinostudiyaya gəldi, gəncləri başına yığdı, kino yaradıcılığına nəfəs verdi, yeni filmlər çəkildi, beynəlxalq festivallara qapı açıldı. "Space" gələndə sürcüyə də borclu olan bir telekanalı uçuş meydançasına çıxardı.

Zəhmətini doğru-dürüst paylaşmağı bacaran bu insanımız inanıram, hara getsə özünü yenə doğruldacaq "

**Jurnalist Cavid Zeynallı isə deyib ki, Müşfiq Hətəmov başqa işə keçməsi ilə əlaqədar "Space" TV-nin rəhbəri vəzifəsindən azad olunub:** "Bu iki il müddətində böhran vəziyyətində olan telekanal üçün nələr etdiyini, bataqlıqdan hansı çətinliklər hesabına çıxardığını mən yaxşı bilirəm.

Amma istədiyi, planlaşdırdığı işləri edə bildimi, yox. Çünki TV-nin nə qədər böyük maliyyə resursu tələb etdiyini çox adam bilmir. Bu mühitdəki şərtlər, yazılan və yazılmayan qaydalarla iş qurmaq asan deyil. Amma bir şeydən əminəm ki, Müşfiq Hətəmov mümkün olandan daha artığını etdi. Bundan sonra hansı işlə məşğul olacaqsa, Allah yolunu açıq, işlərini uğurlu etsin".

**Şəymən**

# Yeni dəyişikliklər müzakirə edildi

## Sərmayə mexanizmi növbəti illərdə pensiya məbləğlərində yeni artımlara imkan yaradacaq



**Milli Məclisin Əmək və sosial siyasət komitəsində "Sosial sığorta haqqında" qanununda yeni dəyişikliklər müzakirə edildi və plenar iclasa tövsiyə olundu. Dəyişiklik dövlət sosial müdafiə fondunun sərbəst vəsaitinin investisiyaya yönəldilməsinə imkan verəcək.**

İlk dəfə olaraq sözügedən qanunvericiliyə sərbəst vəsait və investisiya gəliri terminləri kimi yeni anlayışlar gətirilir. Həmin anlayışlar dövlət sosial müdafiə fondunun investisiyaya yönəldilə bilən vəsaitini və bu vəsaitin sərmayəyə yönəldilməsi nəticəsində əldə edilən gəlirlərin formalaşması qaydasını müəyyən etməyə imkan verir.

**Millət vəkili Vüqar Bayramov bildirib ki, dəyişikliyin ümumi mahiyyəti ondan ibarətdir ki, fond sərbəst vəsaitini az riskli sahələrə investisiya edərək öz gəlirlərini artıra biləcək. Deputatın sözlərinə görə, Fond bununla gəlir mənbələrini şaxələndirərək yalnız büdcə transferləri və yığımlardan asılı olmayacaq:** "Bu isə Fonda imkan verəcək pensiya artımları daxil olmaqla fərqli istiqamətlərə daha çox vəsait ayıra bilsin. Riskləri sığortalamaq üçün sərbəst vəsait hər hansı kommersiya bankında deyil, yalnız Mərkəzi Bankda saxlanıla biləcək. Bütövlükdə, məqsəd əlavə gəlir mənbəyinin formalaşdırılması vasitəsilə pensiya təminatı sisteminin dayanıqlılığının artırılması, eləcə də, sosial müdafiə və təminat sahələrində davamlı islahatların aparılmasına imkan verməkdir. Bu isə o deməkdir ki, sərmayə mexanizmi növbəti illərdə pensiya məbləğlərində yeni artımlara imkan yaradacaq. Bu, pensiya təminatının da güclənməsinə xidmət edəcək".

**İsmayıl**



# "Söhbət 10 milyon manata yaxın güzəştdən gedir"

## Əhməd İsmayılov: “Yeni vergi güzəştləri medianın iqtisadi dayanıqlığını daha da möhkəmləndirəcək”

**Audiovizual media subyektləri istisna olmaqla, media subyektləri öz fəaliyyətləri nəticəsində əldə etdikləri gəlirlər, o cümlədən reklam gəlirləri, habelə onlara müvafiq dövlət qurumu tərəfindən verilən maddi yardımlar gəlir vergisindən, mənfəət vergisindən və sadələşdirilmiş vergidən azad edilir.**

Bu, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin fevralın 6-da keçirilən iclasında müzakirəyə çıxarılan Vergi Məcəlləsinə təklif edilən dəyişiklikdə əksini tapıb. Bununla bağlı APA-nın suallarını Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin icraçı direktoru Əhməd İsmayılov cavablandırır.

**- Əhməd müəllim, media subyektlərinin gəlir, mənfəət və sadələşdirilmiş vergidən azad edilməsi hansı zərurətdən irəli gəlir?**

- Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi ölkənin media subyektlərinin biznes modelinə keçidinin təmin edilməsi məqsədilə media subyektləri, jurnalistlər və ekspertlərlə çoxsaylı görüşlər keçirərək müxtəlif təkliflər alıb. Bütün rəy və təkliflər təhlil edilərək sistemləşdirildikdən sonra Agentlik hazırladığı inkişaf konsepsiyasının müddəalarının müzakirəsi məqsədilə aidiyyəti dövlət orqanlarına müraciət edib. MEDİA Agentliyi və aidiyyəti dövlət orqanları tərəfindən aparılmış araşdırmalara uyğun olaraq, media subyektlərinin vergiyə cəlb olunmasının təkmilləşdirilməsi, bu istiqamətdə daxili bazarın qorunması və rəqabətədavamlı milli media məhsullarının istehsalının stimullaşdırılması məqsədilə sahəyə tətbiq olunan vergi güzəştlərinin səmərəliliyinin artırılmasına zərurət yarandığı müəyyən edilib. İqtisadiyyat Nazirliyi və Maliyyə Nazirliyinin dəstəyi ilə hazırlanan layihə media sahəsində reklam gəlirlərinin leqallaşdırılması, reklam bazarının həcminin artırılması və canlandırılması ilə media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsinə imkan yaradacaq.

Mediaya iqtisadi güzəştləri özündə əks etdirən “Azərbaycan Respublikasının Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsi Parlamentin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində müzakirə olundu. Layihə audiovizual media subyektləri istisna olmaqla, media subyektlərinin öz fəaliyyətlərindən əldə etdikləri gəlirlərin, reklam gəlirlərinin, habelə onlara verilən müvafiq maddi yardımların gəlir, mənfəət və sadələşdirilmiş vergilərdən, həmçinin onlar tərəfindən istehsal olunan media məhsullarının təqdim edilməsinin əlavə dəyər vergisindən 3 il müddətinə azad olunmasını ehtiva edir. İlkin hesablamalara görə, söhbət 10 milyon manata yaxın güzəştdən gedir.

**- Layihədə öz əksini tapmış iqtisadi güzəştlər medianın reklam bazarının yaxşılaşdırılmasına necə təsir göstərəcək?**

- İlk növbədə qeyd etməliyik ki, media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, dövlət büdcəsindən, o cümlədən digər mənbələrdən maliyyələşdirilmələrinin azaldılması və müstəqil fəaliyyətlərinin təmin edilməsi məqsədilə reklam bazarının həcminin artırılması zəruridir. Mediaya iqtisadi güzəştləri nəzərdə tutan qanun layihəsi medianın reklam gəlirlərinin leqallaşdırılması, reklam bazarının həcminin artırılması və canlandırılması ilə çap və onlayn media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsinə imkan yaradacaq.

**- Media subyektlərinin məhsullarının təqdim edilməsinin ƏDV-dən azad edilməsinin iqtisadi baxımdan faydası necə olacaq? Nə üçün azadolmalar yalnız 3 il nəzərdə tutulur?**

- Dövlətin medianın inkişafına dəstək strategiyasında bu sahə ilə bağlı ayrı-ayrı vaxtlarda ƏDV-dən azad etmə təcrübəsi olub və bu, medianın iqtisadi vəziyyətinin yaxşılaşmasına öz müsbət təsirini göstərib. Ötən ilin mayında Azərbaycanda kütləvi informasiya məhsullarının, kitabların və dərslik komponentlərinin, həmçinin həmin məhsulların istehsalı və nəşri ilə bağlı kağızın idxalı və satışı ƏDV-dən azad edildi. Bu qərar çap mediası məhsullarının maya dəyərini və onların istehsal xərclərini əsaslı azaltmaqla inkişafına təkan vermiş oldu. Bu dəfə isə parlamentə təqdim olunan layihəyə görə, audiovizual media subyektləri istisna olmaqla, media subyektlərinin istehsal etdikləri media məhsullarının təqdim edilməsinin də ƏDV-dən azad olunması təklif olunur. Komitə iclasında müzakirə zamanı bir sıra millət vəkilləri 3 illik müddətin 5 illə əvəz olunması təklifini səsləndirdilər ki, qanun layihəsinin Milli Məclisin iclasında müzakirəsi zamanı bu məsələnin diqqətdə saxlanılacağını düşünürük.

**- Media subyektlərinin biznes modeli kimi güclənməsinin media islahatlarının əsas prioritetlərdən olduğunu vurğulayırsınız. Bu istiqamətdə daha hansı addımların atılması planlaşdırılır?**

- Cənab Prezident İlham Əliyevin “Azərbaycan Respublikasında media sahəsində islahatların dərinləşdirilməsi haqqında” Fərmanı ilə yaradılmış Medianın İnkişafı Agentliyinin nizamnaməsində kifayət qədər geniş spektri əhatə edən fəaliyyət istiqamətləri öz əksini tapıb. Agentlik ilk növbədə media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi, infrastrukturun modernləşdirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin yaradılmasını hədəfləyir və bu istiqamətdə atılacaq addımlara dəstək göstərir. Media və biznes strukturları arasında qarşılıqlı etimada əsaslanan münasibətlərin inkişaf etdirilməsi istiqamətində tədbirlər görülməyə başlayıb və bu tədbirlər davamlı xarakter daşıyır. Medianın İnkişafı Agentliyinin media və biznes strukturları arasında əlaqələndirici platforma rolunu oynaması media subyektləri tərəfindən dəstəklənir.

Medianın inkişafı yönündə dövlətin verdiyi qərarların məzmununa nəzər salsaq, görərik ki, Azərbaycan mediasının iqtisadi dayanıqlığının gücləndirilməsi, müstəqil, güclü, fəaliyyətini günümüzün tələbləri səviyyəsində qurmağı bacaran, habelə dövlətçilik ənənələrinə bağlı və xalqımızın milli maraqlarını rəhbər tutan medianın inkişafı prioritet vəzifələrdən biri kimi daim diqqət mərkəzində olub. Medianın İnkişafı Agentliyi də öz işini media subyektlərinin iqtisadi müstəqilliyinin gücləndirilməsi, müvafiq sahədə yeni iqtisadi modelin formalaşdırılması, yeni informasiya-kommunikasiya texnologiyalarının və innovasiyaların tətbiqinin stimullaşdırılması üzərində qurub.

Sevindirici haldır ki, həyata keçirdiyimiz layihələrin müasir dövrün tələbləri ilə uzlaşdığını, mediaya yeni yanaşmanın formalaşmasına zəmin yaratdığını media ictimaiyyəti də bildirir və Agentliyin təşəbbüslərinə pozitiv reaksiya verirlər. Medianın inkişafına nail olmaq məqsədilə irəli sürdüyümüz və icra etdiyimiz bütün layihələr beynəlxalq mediada gedən müasir prosesləri özündə ehtiva edir və Azərbaycan media subyektlərinin peşəkarlığının artırılması ilə yanaşı, onun simasının müasirləşməsini, beynəlxalq rəqabət imkanlarının yüksəldilməsini hədəfləyib. Düşünürük ki, həm dövlətin dəstəyi, həm biznes strukturları ilə əlaqələrin intensivləşməsi, həm də mediamenecmentin təkmilləşməsi nəticəsində mediamızın qarşılaşdığı sosial-iqtisadi çətinliklərin aradan qaldırılması mümkündür.

# Bakının Qərb diplomatiyası vəziyyəti dəyişdi

## Ermənistan iqtidarlı-müxalifətli reallığı qəbul etməlidir



## Özləri demiş, bundan sonra Qarabağda yalnız Azərbaycanın əllərini öpməyə hazır olanlar qalacaq

**”Rusiyanın xarici işlər naziri Sergey Lavrov qəbuledilməz ifadələr işlədib, faktiki olaraq Ermənistanı işğalçı adlandırıb. Ancaq bir ”əmma” var, Lavrov heç olmasa, yeddi rayonun işğalından danışır”.**

Erməni politoloq Qagik Ambaryan deyib ki, indiki hökumət isə de-fakto buna bütün Qarabağı da əlavə edir. Onun sözünə görə, Ermənistanda təəssüf ki, hakimiyyətin istifadə etdiyi antierməni tezislərinə lazımi əhəmiyyət vermirlər: ”Paşinyan hakimiyyəti Qarabağı təslim etməyə hazırdır. Bundan sonra Qarabağda yalnız Azərbaycanın əllərini öpməyə hazır olanlar qalacaq”. Xatırladaq ki, bundan öncə Ermənistanın hakim ”Vətəndaş Müqaviləsi” Partiyasının deputatı Qurgen Arsenyan demişdi ki, Ermənistanda 3 milyona yaxın erməni yaşayır və Qarabağdakı ermənilər naminə əhalini riskə atmaq olmaz: ”Türkiyə ilə münasibətlərin normallaşdırılması ölkəsinin milli maraqlarından irəli gəlir. Qorxu və nifrət dolu ifadələr səsləndirməkdən çəkinmək lazımdır, çünki bu tip çıxışlar yalnız ziyan vurur. Arsenyanın açıqlamaları söz davasına səbəb olub, müxaliflər onun çıxışına imkan verməyiblər”.

**Beynəlxalq Münasibətlər və Diplomatiya Araşdırmaları Mərkəzi”nin rəhbəri Samir Hümbətov ”Şərq”ə bildirib ki, son vaxtlar Nikol Paşinyan hökumətinin nümayəndələri normallaşma və Qarabağla bağlı müxalifəti ”hiddətləndirən” açıqlamalar verirlər. Analitik qeyd edib ki, Ermənistan hakimiyyəti hazırda elə bir siyasi gücə sahib deyil ki, Qarabağ üzərində iddialarını davam etdirsin:** ”Rusiyanın Ukrayna savaşından dolayı düşdüyü vəziyyət, Qərbin bölgədə fəallaşması, rəsmi Bakının Qərbə yönəlik enerji diplomatiyası prosesləri Azərbaycanın xeyrinə dəyişə bilər. Onu da nəzərə alaq ki, Ermənistan daxilində Rusiyayönlü və Qərbyönümlü qüvvələr arasında ziddiyyətlər dərinləşməkdədir. Bütün bunların hamısı İrəvanın siyasi gündəminə təsir göstərən amillərdir. Paşinyan hökuməti anlayır ki, Qarabağı əldə saxlamaq qeyri-mümkündür. Azərbaycan öz siyasətini qətiyyətli şəkildə həyata keçirir. Əslində erməni müxalifəti populizm və hakimiyyətə gəlmək naminə Paşinyana etirazını bildirsə də, dərk edir ki, proses qısa vaxtda yekunlaşmazsa, Ermənistan növbəti fəlakətə yuvarlanacaq. Ermənistan iqtidarlı-müxalifətli reallığı qəbul etmək məcburiyyətindədir”.

**İsmayıl Qocayev**

# Kənar təsir mümkün deyil

## Türkiyədə baş verən ardıcıl zəlzələlər tamamilə təbii geoloji hadisədir

**Türkiyənin Kahramanmaraş və ətraf vilayətlərində baş vermiş zəlzələ özlüyündə bir sıra iddiaların yaranmasına səbəb olub.**

Həmin iddialardan ən diqqət çəkəni baş verən zəlzələnin süni olması, hansısa seysmoloji silahın tətbiqi sonrası baş verməsidir. Bəzi insanlar isə ardıcıl zəlzələlərin Türkiyənin seçkiyə hazırlaşdığı vaxt baş verməsinin təsadüf olmadığı və qeyd edilən seysmoloji silahın istifadəsi iddiasının doğru olduğunu iddia ediblər. Ekspertlərin fikrincə, dünyada süni titrəyişdən müxtəlif məqsədlər üçün istifadə olunur. Bu metod daha çox neft sənayesində kəşfiyyat işləri, neft və qaz mənbələrini aşkarlamaq üçün olunub.



“Eyni coğrafiyada son günlər seysmoloji aktivlik müşahidə edilirdi və bu prosesin Türkiyədə daha şiddətli olacağını müəyyən etmək olardı”

Geofiziklər yerin müəyyən qatlarına seysmovibratorlarla dalğa göndərərək yerin dərin qatlarındakı qaz, boşluq, su və ya neftlə zəngin laylarla və s. qarşılaşa bilər. Lakin bu o demək deyil ki, bu üsulla 7-8 ballıq dağıdıcı zəlzələ yaratmaq olar. İnsan əli ilə, xüsusi proqram və tektonik silah vasitəsilə istənilən yerdə zəlzələ yaratmaq üçün yerin lazımi laylarına nüvə partlayışı gücündə təsir etmək tələb olunur. Belə bir texnologiya isə hazırda yoxdur.

**Politoloq Turan Rzayev ”Şərq”ə bildirib ki, Türkiyədə baş verən ardıcıl zəlzələlər tamamilə təbii, normal geoloji hadisədir. Analitikin sözlərinə görə, elementar coğrafi biliyə sahib hər kəs bilir ki, yer qabığı sabit deyil və davamlı hərəkət edir:** ”Biz insanlar yer qabığındakı bu hərəkətliliyi zəlzələlər ilə hiss edirik. Coğrafi və geoloji terminalogiyada yerin qabığındakı hərəkətlilik coğrafi tavaların hərəkəti kimi qeyd edilir. Bu tavaların toqquşması nəticəsində seysmoloji aktivlik müşahidə edilir. Türkiyə geoloji olaraq dünyanın ən seysmik bölgələrindən hesab edilir. Bunu təsdiq edən ən sadə nümunə Türkiyənin şimalından keçən Pontus dağ silsiləsi və cənubundan keçən Zaqros dağ silsiləsidir. Hər iki dağ silsiləsi Alp-Himalay qırışıqlığının bir parçasıdır. Müqayisə üçün deyim ki, Azərbaycandakı Kiçik Qafqaz və Talış dağları Zaqros dağ silsiləsinin, Böyük Qafqaz dağ silsiləsi isə Pontos dağ silsiləsinin davamıdır. Buna görə Azərbaycanda da tez-tez zəlzələlər olur. Türkiyənin yerləşdiyi kiçik Asiya yarımadası Avrasiya, Afrika və Ərəbistan coğrafi tavalarının kəsişdiyi bir ərazidir. Məhz buna görə də bu ərazi seysmoloji olaraq dünyanın ən aktiv bölgələrindən hesab edilir. Həmin coğrafi tavaların davamlı surətdə bir-biri ilə toqquşduğu üçün kiçik Asiya yarımadası seysmoloji cəhətdən aktiv olur və dağ silsilələri ilə əhatə olunub. Onu da deyim ki, seysmoloji cəhətdən aktiv olan ərazidəki dağlar həm də cavan dağlar adlanır. Yəni bu ərazidə dağ yaranma prosesi hələ də davam edir. Misal üçün, Mərakeşdəki Atlas dağları qoca dağlardır, çünki burada dağ yaranma prosesi daha getmir və belə dağlar zamanla eroziyaya məruz qalır. Nəticə etibarilə Türkiyədə baş verən zəlzələlər tamamilə təbii, heç bir kənar təsir nəticəsində baş verməyən təbiət hadisəsidir”.

*T.Rzayev bununla yanaşı qeyd edib ki, hadisə hər nə qədər təbii olsa da, baş verəcəyinə dair həm təbii, həm də alimlər səviyyəsində xəbərdarlıq edilmişdi:* ”Təbii səbəb kimi onu göstərmək olar ki, yanvarın 28-də İranın Qərbi Azərbaycan əyalətində 5,9 bal gücündə zəlzələ baş verdi. Hadisə nəticəsində başda Xoy şəhəri olmaqla ətraf ərazilərə ciddi şəkildə ziyan dəydi. İranda baş verən zəlzələnin ardınca isə Naxçıvan MR-də 5.3 ballıq zəlzələ olub. Yəni göründüyü kimi eyni coğrafiyada son günlər seysmoloji aktivlik müşahidə edilirdi və bu prosesin Türkiyədə daha şiddətli olacağını müəyyən etmək olardı. Prinsip etibarilə Niderland Elmi-Tədqiqat İnstitutunun araşdırmaçı-seysmoloqu Fransk Huqerbets tərəfindən iki gün öncədən bu zəlzələnin ərazisi və gücü ilə bağlı dəqiq proqnoz verilib. Yenə həmin şəxs tərəfindən ilk dəfə olaraq bu zəlzələdən sonra da güclü zəlzələ, avtoşok ola biləcəyi ilə bağlı proqnoz verilib”.

Ekspert düşünür ki, baş verən təbiət hadisəsi Türkiyədə bu il keçiriləcək prezident və parlament seçkilərinə təsirsiz ötüşməyəcək.

**İsmayıl Qocayev**

# Ölüm ayağındadır

## Qərbli siyasətçiyə Qərb yardım etməyəcək

**Tbilisi Şəhər Məhkəməsi Gürcüstanın keçmiş Prezidenti Mixeil Saakaşvilinin cəzasının təxirə salınması və ya azad edilməsi ilə bağlı vəsatəti təmin etməyib. Hakim Giorgi Arevadze Mixeil Saakaşvilinin həbsdə saxlanılmasına qərar verib.**



İndi Saakaşvilini Gürcüstan vətəndaşlarından başqa heç kim xilas edə bilməz

Mixeil Saakaşvili iclasdan sonra etdiyi feysbuk paylaşımında məhkəmənin qərarını özünün ”ölüm hökmü” adlandırıb və ölümcül xəstəliklərlə həbsdə saxlanılacağını qeyd edib. Saakaşvilinin vəkilləri Avropa İnsan Haqları Məhkəməsinə müraciət edəcəklərini deyiblər. Vəkil Şalva Xaçapuridze Saakaşvilinin həbsdə saxlanılması qərarının siyasi mahiyyət daşıdığını və mübarizənin dayandırılmayacağını qeyd edib. Ölkənin keçmiş Prezidenti Mixeil Saakaşvilinin təsis etdiyi Gürcüstanın Vahid Milli Hərəkat Partiyası (UNM) Parlamentdəki fəaliyyətini dayandıraraq fövqəladə rejimə keçdiyini elan edib. Sədr Levan Xabeişvili hakim ”Gürcü Arzusu Demokratik Gürcüstan” Partiyasının nümayəndələrinə müraciət edərək, ”Sizin qayğısız həyatınız bitdi”, - deyib.

**Politoloq Elçin Xalidbəyli ”Şərq”ə bildirib ki, keçmiş Prezident Mixeil Saakaşvili Gürcüstan dövləti və xalqı qarşısında böyük xidmətləri olan önəmli bir siyasətçidir. Analitik qeyd edib ki, Gürcüstan əhalisi ölkəyə bir çox yenilikləri və fərqli modern siyasi idarəçilik sistemini gətirmiş Saakaşvilinin dəyərini bilməlidir:** ”Vaxtilə Gürcüstan üçün əlindən gələn hər şeyi etmiş bu siyasətçini müdafiə etməlidir.

Çünki hazırda belə görünür ki, Mixeil Saakaşvilini Gürcüstan vətəndaşlarından başqa heç kim xilas edə bilməz. M.Saakaşvili Qərb yönümlü siyasətçi kimi hakimiyyətə gəlmişdi. Gürcüstanı Rusiyadan uzaqlaşdırıb, Qərbə doğru yaxınlaşdırmışdı. Ona görə də Gürcüstan M.Saakaşvilinin hakimiyyəti dövründə ABŞ və Qərbin Cənubi Qafqazdakı ən yaxın və etibarlı strateji tərəfdaşı hesab olunurdu. Ancaq indi ABŞ və Qərbin ən yaxın regional dostu olan M.Saakaşvilinin həyatı təhlükədədir. Onun Amerika və Qərbin dəstəyinə, müdafiəsinə ehtiyacı var. Və yəqin ki, o, belə bir dəstəyi böyük ümidlə gözləyir. Buna baxmayaraq, Amerika və Qərb bir neçə ”növbətçi bəyanat” istisna olmaqla, susur. Belə anlaşılır ki, ABŞ və Qərbin həyatı təhlükədə olan M.Saakaşviləyə yardım etmək niyyəti yoxdur. Ona görə də ABŞ və Qərbin M.Saakaşvilini müdafiə edəcəyi artıq o qədər də inandırıcı görünmür”.

**Ekspert vurğulayıb ki, əslində, bu, o qədər də təəccüblü deyil. Çünki ABŞ və Qərbin dostları yoxdur, yalnız strateji maraqları var:** ”Həmin strateji maraqları təmin etmək üçün hər kəsdən istifadə edirlər. Ancaq sonradan istifadə etdikləri siyasətçilərin taleyi ABŞ və Qərbi qətiyyən düşündürmür və narahat etmir. ABŞ və Qərb M.Saakaşvili kimi siyasətçiləri istifadə edib, sonra da bir kənara atırlar, əvəzində istifadə edəcəkləri yenilərini tapırlar. Ona görə də indi ABŞ və Qərb M.Saakaşvilinin taleyinə belə biganə yanaşır. Görünən odur ki, ABŞ və Qərb M.Saakaşvilini taleyin ümidinə buraxıb. Ona görə də Qərb siyasi dairələrinin M.Saakaşvili ilə bağlı Gürcüstan hakimiyyətinə hansısa təzyiqlər göstərəcəkləri hazırda qətiyyən inandırıcı görünmür”.

**İsmayıl Qocayev**

# Rəsmən təsdiqləndi

## Tehrandakı səfirliyimizə hücum planlaşdırılmış terror aktıdır

**Azərbaycanın Tehrandakı səfirliyinə hücumun planlaşdırılmış terror aktı olması rəsmən elan edildi. Ötən gün Azərbaycan Xarici İşlər Nazirliyində Tehrandakı Azərbaycan səfirliyinə terror hücumu ilə bağlı brifinq keçirildi. Xarici İşlər Nazirliyinin Mətbuat xidmətinin rəhbəri Ayxan Hacızadə hücumun başvermə şəraiti barədə detallı məlumat verdi və bunun planlı şəkildə həyata keçirilmiş terror aktı olduğunu bildirdi.**



### "İran rejimi cavab verməlidir, bu terror eyni zamanda həm regionda, həm də dünyada sülhə qarşı yönəlmiş təxribatdır"

Qeyd olundu ki, İranda hücum üçün istirahət gününün seçilməsi, ehtiyat maqazinli avtomatik silahın və əlavə tapançanın, yandırıcı qatışığın olması, İran polisinin müdaxilə etməməsi bunun planlı terror aktı olduğunu deməyə əsas verir. O da diqqətə çatdırılıb ki, İran tərəfi baş verənlərlə bağlı izahat verilməsi, terror aktında əli olanların barəsində görülən tədbirlərlə bağlı Azərbaycanın tələbinə cavab verməyib.

**Milli Cəbhə Partiyasının sədr müavini Tural İrfan "Şərq"ə açıqlamasında deyib ki, artıq bütün dünyada tam məlumdur ki, məlum terror aktını İran antiislam rejimi uzun müddət planlaşdırandan sonra məqsədli şəkildə həyata keçirib.** Burada araşdırılmalı və sübut olunmalı təkcə o qalıb ki, terrora əmri kimin verməsi müəyyənləşsin. Böyük ehtimalla birbaşa İran dövlətinin rəhbərlərindən hansısa verib bu əmri. Hadisənin motivi, bütün detalları, subyektiv və obyektiv mahiyyəti tam sübut edir ki, göstəriş İran rəhbərliyi tərəfindən verilib. Terrorçu xüsusi təlim keçmiş, əslən azərbaycanlı olaraq qəsdən seçilib. Bir neçə güllə dolu daraq, tapança və digər partlayıcı maddələrin də terrorçuda olması onun xüsusi olaraq göndərildiyini isbat edir. İnsan bu qədər silah-sursatı qanunsuz şəkildə haradan əldə edə bilərdi əks halda? Xüsusən də İranda son iğtişaşlar zamanı polis və təhlükəsizlik orqanları ciddi şəkildə əhaliyə nəzarət edir, üsyançıların silah əldə etməməsi üçün əlindən gələni edir. Belə bir ərəfədə guya psixoloji problemləri olan bir şəxsin bu qədər silah və sursat əldə edərək səfirliyə özbaşına hücum etməsi mümkün deyil. Və İran rəsmilərinin açıqlamaları da əsas verir ki, bu, təşkil edilmiş hadisədir. Məqsəd isə guya Azərbaycana qarşı qorxu yaratmaqdır. İran hər zaman terrora dəstək verir və terroru özü üçün prioritet hesab edir. Vaxtilə ABŞ səfirliyinin binasına da belə bir hücum olub və səfirlik əməkdaşlarını uzun müddət əsir saxlayıblar. Bu yaxın dönəmdə Britaniyadakı səfirliyimizə də İrana bağlı radikal din pərdəli şəxslər tərəfindən də hücum olunmuşdu. Eyni ssenari indi də İranda təkrar olundu. Əgər bu təsadüf idisə, necə oldu illər öncə baş vermədi, sırf İranla Azərbaycan arasında müəyyən gərginlik müşahidə olunan ərəfədə oldu?".

**T.İrfan vurğulayıb ki, bütün hallar bunu deməyə əsas verir ki, hadisə sırf İran fars molla rejimi tərəfindən məqsədyönlü şəkildə həyata keçirilib:** "Düşünürəm ki, eyni motivli oxşar hadisələri İrana bağlı qüvvələr ölkə daxilində də törətməyə cəhd edə bilərlər. Çünki ölkəmizdə çoxsaylı İrana bağlı şəbəkələr, agentlər, din pərdəsi altında fəaliyyət göstərən şəxslər var. Ona görə ölkədə ciddi şəkildə təmizləmə tədbirləri görülməlidir. Həmçinin din pərdəsi altında inanclı insanları İranın istismar etməməsi üçün özümüzün milli islam modelimiz formalaşmalı, milli din xadimlərinə qarşı İran şəbəkəsinin məhdudlaşdırma kampaniyasına son qoyulmalıdır. Çünki İran əsasən bu kimi təsirləri din adı altında həyata keçirir. Səfirlikdə baş verən terrorla bağlı da bizim hüquq-mühafizə orqanlarının da iştirakı təmin olunmaqla ədalətli, obyektiv araşdırma aparılmalı və İran rejimi bu mənfur hadisəyə görə cavab verməlidir. Azərbaycan xalqına qarşı, Azərbaycan dövlətinə qarşı törədilmiş bu terror eyni zamanda həm regionda, həm də dünyada sülhə qarşı yönəlmiş təxribatdır. Ona görə dünya birliyi də bu məsələdə öz mövqeyini ortaya qoymalı, İrana qarşı ciddi tədbirlər görməlidir".

**İsmayıl Qocayev**



**Türkiyədəki zəlzələni fürsət bilən düşmənlər qardaş ölkəyə qarşı təxribatlara başlayıblar. Ötən gün PKK/YPG terror qruplaşması Türkiyənin Öncüpınar sərhəd polis məntəqəsini ağır çaplı silahlarla atəşə tutub. Hücum Suriyanın Tel Rıfat bölgəsindən həyata keçirilib.**

# PKK-nın layiqli cavabı veriləcək

## Zəlzələni fürsət bilən terrorçuların Türkiyəni hədəf alacağı ehtimal edilirdi

Rəsmilərin açıqlamasına görə, terrorçu ünsürlər Ankaranın başının zəlzələyə qarışmasından yararlanaraq çirkin niyyətlərini həyata keçirmək istəyiblər: "Polis işçiləri arasında itki yoxdur. Terrorçulara adekvat cavab verilib".

**Siyasi elmlər doktoru, professor Cümşüd Nuriyev "Şərq"ə açıqlamasında bildirib ki, hər faciədə Türkiyənin düşmənləri dərhal işə düşürlər. Professorun sözlərinə görə, zəlzələni özləri üçün "göydəndüşmə fürsət" görən terrorçular və onların arxasındakı güclər qardaş ölkəni hədəf alıblar:** "Türkiyədəki faciədən sevinəcək iki-üç ölkə varsa, onlardan biri İran, digəri Ermənistandır. İrəvan Tehrandan fərqli olaraq yalandan da olsa formal açıqlamalar verdi, "yardım" etməkdən danışdı. Ancaq İranın soyuq yanaşması ortadadır. Bir müddət əvvəl türklərin yaşadığı Xoyda baş vermiş zəlzələyə görə Türkiyənin köməyini rədd edən İrandan humanitar dəstək gözləmək əbəsdir. Zəlzələni fürsət bilən terrorçuların Türkiyəni hədəf alacağı ehtimal edilirdi. PKK-nın ASALA tərəfindən yarandığı bəllidir. Şübhəsiz, təlimatı xaricdəki havadarlarından alıblar. Lakin Ermənistanın bunu edəcək siyasi gücü yoxdur. PKK-nı hazırda ən çox dəstəkləyən dövlət İran və ABŞ-dir. Terrorçuları ağır bir fəlakət zamanı meydana sürmək ancaq onların işinə yarayar. Bu təxribat heç bir ölkəyə baş ucalığı gətirməz. Türkiyə Silahlı Qüvvələri daim güclü və qüdrətlidir. Əmin olun, həm PKK-nın layiqli cavabı veriləcək, həm də himayədar ölkələrdən hesab sorulacaq".

**İsmayıl Qocayev**



# Bakı sürüşkən torpağın üzərindədir

## Memar: "Şəhər çoxmərtəbəli binalarla həddindən artıq çox yüklənib"

**Türkiyədə baş verən zəlzələ tikilən çoxmərtəbəli binaların keyfiyyəti ilə bağlı məsələni yenidən gündəmə gətirib. Azərbaycan seysmoloji zonada yerləşir və hər an bu cür arzuolunmaz hadisələr baş verə bilər.**

Bəs, Bakıda yeni tikilmiş binalar gələcəkdə ola biləcək hər hansısa bir təbii fəlakətə tab gətirə biləcəkmi? Ara məsafələri belə olmayan binalar təhlükəsizlik qaydalarına riayət edilərək tikilibmi?

Məsələ ilə bağlı "Trend"ə açıqlama verən əmlak məsələləri üzrə ekspert Ramil Osmanlı bildirib ki, hazırda tikilən binalar sovet vaxtı tikilən binalardan zəlzələyə daha davamlıdır.

"Son illərdə tikintilərin müvafiq normalara əməl olunmaqla aparılmasına nəzarət gücləndirilib. Bir neçə ildir ki, ölkəmizdə tikilən çoxmərtəbəli binalar həm şaquli, həm də üfüqi bir-birinə bağlanır. Bu səbəbdən belə binalar zəlzələyə daha davamlı olur. Ancaq həmin binaların neçə ballıq zəlzələyə davamlı olduğunu demək çətindir. Təbii ki, binaların zəlzələyə davamlılığı bilavasitə təbii hadisə zamanı üzə çıxa bilər. Sovet dövründən qalan, istismar müddətini başa vuran köhnə binaların təbii fəlakət qarşısında duruş gətirməsi titrəyişin müddətindən asılıdır. Baş verə biləcək zəlzələ nəticəsində, seysmik göstəricilərin dayanıqlılığı yüksək olsa belə, bu binaların əksəriyyəti qəzalı vəziyyətə düşə bilər".

Azərbaycan Milli Elmlər Akademiyasının nəzdində Respublika Seysmoloji Xidmət Mərkəzinin baş direktoru Qurban Yetirmişli isə bildirib ki, Bakıda binalar tikilməzdən əvvəl ərazinin seysmoloji vəziyyəti öyrənilməlidir. Bakıda yan-yana dayanan binaların biri 8, biri 9 ballıq zəlzələyə davamlı nəzərdə tutulur: "Mikrorayonlaşdırma xəritəsinə uyğun binalar tikmək olmaz. Seysmoaktiv ərazilərdə bu xəritələrlə işləmək olmaz. Bu prosesdə xəritə yox, seysmoaktiv vəziyyət dəyərləndirilməlidir.

8 ballıq zəlzələ zonası ilə müqayisədə 9 ballıq ərazidə tikinti apararkən, hesablanmış normativlərə görə 40 faiz əlavə vəsait qoyulmalıdır.

"Xüsusi dəmir-beton sütunlar, onların ölçüləri, armaturlar və digər ölçülər nəzərə alınmalıdır. Əgər 8 ballıq zonada bina 1 milyon manata başa gəlirsə, 9 ballıqda 1 milyon 400 min manata başa gələcək. Tikinti şirkətləri əlavə vəsait xərcləmək və bunun vergisini vermək istəmirlər. 2019-cu ildən bəri Bakıda tikinti şirkətləri tikinti

### "Hansısa bir təbii fəlakətdə bütün şəhər sürüşüb dənizə tökülə bilər"

ərazisinin seysmoloji xəritəsi ilə bağlı Respublika Seysmoloji Mərkəzə müraciət etmir", - deyə Q.Yetirmişli qeyd edib.

**Memar Aytəkin İmranova isə "Şərq"ə açıqlamasında deyib ki, qanuna görə, binalar arasında məsafə tikilinin hündürlüyünün 60 faizini təşkil etməlidir. Lakin çox yerdə binalar bu qaydalara əməl olunmadan inşa edilib. Bizim Bakıda tikilən binalar isə bir-birinə o qədər yaxındır ki, nə qanuna, nə də seysmoloji normativə uyğundur:** "Axı Bakı sürüşkən zonadır. Uzaq olsun, sabah sürüşmə, zəlzələ, sel baş versə, vəziyyət çox acınacaqlı olacaq bilər. Hətta zəlzələ yox, adi bir yanğın hadisəsində belə çox ciddi risklər yaranır. Binalar bir-birinə o qədər yaxındır ki, bu həm texnikanın hərəkəti üçün maneədir, həm də bir binada başlanan yanğın digər binalara keçərək alovun əhatəsini genişləndirə bilər.

Tikinti işbazları tarixi, möhkəm binaları söküb yerində eybəcər çoxmərtəbəli binalar tikdilər. Dəfələrlə çağırış etdik, müraciət etdik ki, buna yol vermək olmaz. Heç kəs bizim səsimizi eşitmədi. Dünyada bununla bağlı xüsusi metodologiyalar var. Avropanın, Asiyanın tarixi mərkəzlərinə nəzər salsaq, bir yerdə belə çoxmərtəbəli binanın tikildiyini görmərik. Məgər Brüsseldə, Londonda bunun üçün vəsaitmi yoxdur. İçərişəhər guya ki, qorunur, görülən bərpa işlərinə baxaq, hər gələn məmur bir cür əmr verir, necə gəldi üzləyirlər və tarixilikdən əsər-əlamət qalmır. Tarixi abidənin bərpası onun ilkin tarixi görünüşünün qaytarılmasıdır. Vaxtilə bunun üçün arxivləri araşdırır, layihələrini axtarıb tapırdıq. Heç bir formada bərpa işlərində qaydalara əməl olunmur. Niyə çoxmərtəbəli binaları mikrorayonlarda yox, mərkəzdə tikirlər? O qədər boş ərazilər var ki. Çünki bunların məqsədi əhalinin yaşayışını yüksəltmək, mənzil tələbatını təmin etmək yox, milyonlar qazanmaqdır. Mərkəzdə 2 otaqlı mənzilləri 300-500 minə satırlar. Ona görə də tarixi binaları məhv etdilər ki, çoxmərtəbəli evləri tikib daha çox adamlara satsınlar".

Şəhərin hər yerində, xüsusilə mərkəzlərdə bu qədər tikililərin aparılması bütün problemlərlə yanaşı, ekoloji problemlərin də yarandığını deyən professor dünya təcrübəsindən danışıb: "Bir çox ölkələrdə özü üçün binalar tikdirmək istəyən şəxsə şəhərin kənarında yer ayrılır və həmin şəxs oranı tikdirir, bütün prosesləri özü həyata keçirir. Bizdə isə əksinədir. Hamı şəhərin mərkəzinə can atır. Burada nə isə tikdirmək istəyir ki, bu da Bakını belə çıxılmaz vəziyyətə salır.

İmkanı olan insalar da mərkəzin mənzərəsinə, dəniz mənzərəsinə həvəslənib yeni binalara üstünlük verir. Halbuki bu binaların hər anı təhlükədir. Amma binaların əksəriyyəti boşdur. O qədər bahadır ki, orta aylıq gəliri olan insanlar bu mənzillərə yaxın düşə bilmirlər. Deməli, bu nə bazar iqtisadiyyatına aiddir, nə sosial sifarişdir, nə də iqtisadi bir sosial yönlü aksiyadır. Təəssüf ki, indi işlərin heç biri elmi əsasda aparılmır. Əvvəllər Bakıda mikrorayonlar və sair kimi yaşayış yerlərinə üstünlük verilirdi. İndi isə bütün obyektləri, çoxmərtəbəli binaları əsasən mərkəzdə tikməyə çalışırlar ki, bu da şəhərin yüklənməsinə səbəb olur. Artıq şəhər idarə olunmaz bir vəziyyətdədir. Siz zəlzələdən danışırsınız, adicə havalar bir az dəyişəndə şəhərin nə hala düşdüyü göz qabağındadır. Allah üzümüzə baxıb ki, bizdə bu cür dəhşətli zəlzələlər, tufanlar olmur. Yoxsa Bakı 1 saatın içində yox olardı. Amma bizdə zəlzələ olmur deyə biz özümüzü arxayın salmamalıyıq. Dediyim kimi, Bakı sürüşkən torpağın üzərindədir və həddindən artıq çox yüklənib. Hansısa bir təbii fəlakətdə bütün şəhər sürüşüb dənizə tökülə bilər. Mən həmişə bu təhlükədən qorxmuşam. Bir neçə metrostansiyaların üstündə hündür binalar tikilib. Təkcə bu faktın özü belə real təhlükə mənbəyidir. Bu tikililəri aparmaq üçün torpaq ayıran şəxslərin bunu hansı prinsiplə həyata keçirdiklərinin maraq doğurduğunu deyir: "Hər bir işin əvvəlində araşdırmalar, məlumat toplamalar durur. Bizdə isə bu prinsipə qətiyyən əməl olunmur. Kimin ağlına hansı fikir gəldi onu da tətbiq etməyə çalışır. Amma bir məqamı unudurlar ki, bu şəhərin sahibi onlar deyil. Biz bu şəhəri gələcək nəsillər üçün də qoruyub saxlamalıyıq. Deyək ki, bütün dünyada tarixi abidələrin lap göyərmiş daşlarına da toxunmurlar. Bizdə isə həmin abidələrin "korlanmış" daşlarını yonub yerinə yenilərini qoymaqdan belə çəkinmirlər".

**Şəymən Bayramova**

# Ordumuz hazırlıq işləri görməlidir

## Düşmən təxribat törədə bilər



**"Müdafiə Nazirliyinin tabeliyində olan birlik və birləşmələrdə döyüş hazırlığı tədbirləri 6 aylıq tədris planlarının əsasında həyata keçirilir".**

Bunu "Şərq"ə hərbi ekspert Elxan Şıxəliyev Azərbaycan Ordusunun bölmələrinin döyüşə hazırolma qabiliyyətinin məşq etdirilməsindən danışarkən deyib. Onun sözlərinə görə, döyüşə hazırlıq səviyyələrinin yoxlanılması tədbirləri bütün hərbi hissələrdə reallaşdırılacaq:

"Döyüşə hazırolma tədbirləri bölmələrin gözlənilmədən "həyəcan" siqnalı ilə döyüş təyinatlı rayonlara çıxarılır. Sonradan şərti tapşırıqlarla onların döyüş tapşırıqlarını yerinə yetirməyə nə qədər hazır olduqları üzərindən məşqlər etdirilir.

İndiki mərhələdə Müdafiə Nazirliyinin tabeliyində olan bütün birlik, birləşmə və hərbi hissələrdəki bölmələrin ən yüksək döyüş hazırlığı qurumun bir nömrəli tələbidir.

Çünki hələ coğrafiyamızda təhdid və təhlükələrimiz tamamilə neytrallaşmayıb. Xüsusən də, hazırda Qarabağdakı qeyri-qanuni birləşmələrin zərərsizləşdirilməsi, antiterror əməliyyatlarının həyata keçirilməsi nəticəsində onların bölgədə sıfırlanması tapşırığı qarşıda durur. Digər tərəfdən ermənilər revaşist bəyanatlarını davam etdirirlər. Həmçinin təxribat törədə bilərlər. Bu məşqlər Ermənistanla olan sülh sazişinin imzalanmaması müddətində baş verə biləcəkləri əngəlləməyə yönələn Silahlı Qüvvələrimizin əsas tapşırıqlarından biri sayılır. Bununla yanaşı, artıq İranın təhdid və təhlükələri də mövcuddur.

Əvvəl təhlükəni təkcə Ermənistandan gözləyirdiksə, artıq İran da əlavə olundu. Deməli, Azərbaycan Silahlı Qüvvələri hər zaman ən yüksək səviyyədə döyüş hazırlığına malik olmalıdırlar. Bunun da yolu təlim və məşqlərdən keçir. Ordumuzun hərbi təlimlərdə iştirakı mütəmadi olaraq həyata keçirilməlidir. Türkiyə Silahlı Qüvvələri ilə bərabər təlimlərin gerçəkləşdirilməsi bu il üçün də nəzərdə tutulub. Ona görə də Azərbaycan Silahlı Qüvvələrinin sülh sazişi imzalamadığı müddətə qədər əsas döyüş tapşırıqlarına hazırlıq işləri görülməlidir".

*Qeyd edək ki, Rusiya yaxın aylarda Ukraynaya genişmiqyaslı həlledici hücuma hazırlaşır. Bu barədə ABŞ-nin Müharibə Araşdırmaları İnstitutunun (ISW) hesabatında deyilib. Analitiklər bildiriblər ki, Qərb, Ukrayna və Rusiya mənbələrinin məlumatları bunu göstərib. O da vurğulanıb ki, ISW əvvəllər belə proqnozla çıxış edib.*

**Sücayət Mehti**

# Türkiyədə zəlzələ bölgəsində 800 azərbaycanlı tələbə təhsil alır



**"Zəlzələ nəticəsində daha çox dağıntıya məruz qalan bölgələrdə təhsil alan tələbələrin sayı çoxdur".**

Bunu APA-ya açıqlamasında Azərbaycanın Türkiyədəki səfiri Rəşad Məmmədov deyib.

O bildirib ki, zəlzələnin təsirinə az məruz qalan iki vilayət - Mersin və Elazığda təhsil alan tələbələrimiz var:

"Amma orada da bizim tələbələrimiz çoxdr. Təxminən 700-800 tələbəmiz də həmin vilayətlərdədir. Amma onlardan da getmək istəyən olsa, təxliyə olunacaq. Zəlzələ baş verən bölgədə olan tələbələr - Kahramanmaraşda 100, Hatayda 27, Adıyamanda 4, Osmaniyədə 35, Diyarbakırda 26, Elazığda 212, Urfada 14, Zonquldaqda 1, Antepdə 86, Adanada 169, Kilisdə 2, Malatyada 136 azərbaycanlı tələbə təhsil alır. Onların hamısı ilə əlaqə saxlanılmağa çalışılır. Yaradılmış Operativ qərargahlarımıza daxil olan bütün müraciətlər araşdırılır".

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**



# Evdar qadınların maddi təminatının yaxşılaşdırılması prioritetdir

## Boşanmış və bu problemlə üzləşmə ehtimalı olan qadınlar üçün cəmiyyətdə daha yaxşı şərait yaradılmalıdır

**Azərbaycan dövlətinin sosial siyasətində təqaüdçülər, aztəminatlı ailələr, uşaqlar, həmçinin evdar qadınların maddi təminatının yaxşılaşdırılması daim prioritet olaraq qalır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sosial müavinətlərin məbləğinin artırılması və ”Əhalinin sosial rifahının yaxşılaşdırılması sahəsində əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 yanvar tarixli 3708 nömrəli sərəncamının bəndlər üzrə icrasını təmin etmək məqsədilə 2023-cü ilin yanvar ayında Fərman imzaladı.**

Fərmana uyğun olaraq həssas əhali qruplarının sosial müavinətləri artımla ödəniləcək. Burada yaşa görə sosial müavinətlər də var, ailə başçısını itirməyə görə, bir yaşınadək uşağı olan aztəminatlı ailələrin sosial müavinətin məbləğinin artırılması da nəzərdə tutulub. Məlumdur ki, yaşa görə sosial müavinət alanlar arasında işsizlər də var. Evdar qadınlar da bu kateqoriyaya aiddir. Hər nə qədər gender bərabərliyinin təmin edilməsinə çalışılsa da, hər bir ölkənin əsrlərlə formalaşmış xüsusiyyətləri də diqqətə alınmalıdır. Azərbaycan qadını ictimai-siyasi həyatın fəal komponenti olsa da, ailə qurduqdan sonra bütünlüklə ailəsiylə məşğul olan, övladlar böyüdüb tərbiyə edən evdar xanımlarımız az deyil. Bu qadınlar hər hansı əmək stajına malik olmadıqlarından yaşa görə hesablanan müavinətin miqdarı da az olur. Ailə başçısını itirmiş, tənha qadınlar bu səbəbdən maddi sıxıntı yaşayırlar. ”Şəffaflıq Azərbaycan” Korrupsiyaya Qarşı Mübarizə” İctimai Birliyi və ”Uluçay” Sosial-İqtisadi İnnovasiya Mərkəzi İctimai Birliyinin Avropa İttifaqı və BMT İnsan Hüquqları üzrə Ali Komissarlığının (OHCHR) dəstəyi ilə icra etdiyi ”Azərbaycanda uşaqların və həssas qadınların insan hüquqlarının monitorinqi və müdafiəsi” layihəsi bu problemin həllində beynəlxalq təcrübənin öyrənilməsinə yönəlib. Layihə ilə bağlı ”Azərbaycanda evdar qadınların sosial müdafiəsi problemləri və beynəlxalq təcrübə” mövzusunda dəyirmi masa keçirilib. Layihə əlaqələndiricisi Zaur İbrahimli görülmüş işlərdən söz açıb. Layihə çərçivəsində qadınlara göstərilmiş hüquqi yardım barədə məlumat verib. ”Uluçay” Sosial-İqtisadi İnnovasiya Mərkəzi İB-nin icraçı direktoru İlyas Səfərli ”Şəkidə boşanmış qadınların üzləşdikləri çətinliklər” mövzusunda aparılmış mikrotədqiqatın nəticələrini təqdim edib. Xülasə bundan ibarətdir ki, Azərbaycanda boşanma hələ də çox mübahisəli hesab olunur və cəmiyyətin bir çox üzvləri, xüsusilə də keçmiş ənənə ilə yaşayan və düşünən nəsillər və əsasən də, kənd yerlərində yaşayan insanlar tərəfindən anlayışla qəbul edilmir. Araşdırma boşanmış qadınların cəmiyyətdəki mövqeyinə cinsi həssas bir mövzu baxımından toxunub. Mərkəz boşanmış qadınlarla bir sıra müsahibələr apararaq araşdırma həyata keçirib, məsələni daha geniş şəkildə anlamaq üçün isə ayrı-ayrı mənbələrdən statistik məlumat toplayıb. Araşdırma boşanma prosesində və sonrakı mərhələlərdə qadınların ümumi çətinlikləri, hüquqi mexanizmlərin mövcudluğu və qadınların qanunlar, eləcə də insan hüquqları haqqında nə dərəcədə yaxşı məlumatlı olduqları haqqındadır. Sosial stigma bütün prosesə necə təsir göstərir və bu çoxşaxəli problemi həll etmək üçün hansı yollar var? Bu gün boşanmış və gələcəkdə bu problemi yaşama potensialı ilə üzləşmə ehtimalı olan qadınlar üçün cəmiyyətdə daha yaxşı şərait yaratmaq, mövcud vəziyyəti dəyişdirmək üçün dəqiq hansı addımlar atıla bilər? Bu baxımdan da, ölkədə gender bərabərliyi məsələlərini həll etmək üçün hərtərəfli araşdırmaların aparılması günümüzün ən aktual məsələlərindən biridir. Azərbaycanda qadınlar rəsmi olaraq tam siyasi, iqtisadi və sosial iştirak hüququna malikdirlər, lakin cəmiyyətdəki, xüsusilə də, kənd yerlərindəki dərin köklü patriarxal münasibətlərə görə reallıq bir az fərqlidir. Ailə yüksək dəyərə malikdir, uşaq ailənin ən mühüm elementlərindən biridir, kişilər əsas qərar sahibləri və çörək pulu qazananlardır, qadınlar ana olduqlarına və eləcə də, əgər lazım gələrsə, maliyyə dəstəyini təmin etdiklərinə görə çox hörmət edilirlər. Həmçinin qeyri-rəsmi şəkildə kişi və qadın peşələrinə bölünən sahələrdə də problem var. Kişilər biznes sahəsi, idarəçilik, iqtisadiyyat, tikinti və neft sahəsində, qadınlar isə orta əməkhaqqı çox aşağı olan təhsil, səhiyyə, sosial xidmətlər, istirahət və əyləncə sahələrində çalışırlar. Bu cür bölgü nəhəng gender boşluğu yaradır və kişilərin çalışdığı müxtəlif sahələrdə qadınların ümumi qabiliyyətinin vacibliyini azaldır. Bu ənənəvi rollar qadınların kişilərdən iqtisadi, siyasi və psixoloji asılılığını göstərir.

Tədbirdə iştirak edən ”Şəffaflıq Azərbaycan” Korrupsiyaya Qarşı Mübarizə” İB-nin İdarə Heyəti üzvü Rəna Səfərəliyeva ”Azərbaycanda evdar qadınların sosial müdafiəsi problemləri və beynəlxalq təcrübənin tətbiqi imkanları” mövzusunda mövqe sənədini təqdim edib. QHT təmsilçiləri, müstəqil ekspertlər, dövlət orqanları nümayəndələrinin iştirakı ilə keçirilən tədbirdə ”Balakən rayonunda uşaqların üzləşdikləri zorakılıq halları” adlı mikrotədqiqatın nəticələri də təqdim edilib. Bildirilib ki, layihənin dəstəyi ilə icra olunan tədqiqat yerli ictimai fəallar tərəfindən aparılıb. ”Hüquqi Təhlil və Araşdırmalar” İB-nin sədri Ramil İsgəndərli isə layihə çərçivəsində hazırlanmış ”Uşaqlar üçün həssas ədliyyə yanaşması tətbiqinin inkişaf perspektivləri” adlı mövqe sənədini təqdim edib. Sənəddə yuvenal ədliyyə ilə bağlı Qərb ölkələrinin, Avropanın təcrübəsi ümumiləşmiş şəkildə analiz edilib və milli praktika ilə müqayisə edilib. Bu sahədə Azərbaycan üçün aktual olan məsələlər vurğulanıb və tövsiyələr verilib. Müzakirələrdə Ədliyyə Nazirliyi, ƏƏSMN, Ombudsman Aparatının, Sosial Tədqiqatlar Mərkəzinin, Ailə, Qadın, Uşaq Problemləri üzrə Dövlət Komitəsinin nümayəndələri öz rəylərini bildiriblər və gələcək planlarla bağlı fikirlərini açıqlayıblar.

**”Şəffaflıq Azərbaycan” Korrupsiyaya Qarşı Mübarizə” İB-nin icraçı direktoru Əliməmməd Nuriyev isə ”Şərq”ə açıqlamasında qeyd etdi ki, Azərbaycanda evdar qadınların sosial müdafiəsi ilə əlaqədar siyasətə yenidən baxılmasına və mütərəqqi xarici təcrübənin tətbiqinə ciddi ehtiyac var:**

- Dəyirmi masada evdar qadınların sosial müdafiəsi və yuvenal ədliyyə ilə bağlı təkliflər təqdim edildi. Bu gün ömrünün məhsuldar dövrünü evdar qadın kimi keçirən, cəmiyyət üçün övladlar böyüdən qadınlar boşandıqda, yaxud fors-major hallar ilə üzləşdikdə sosial cəhətdən bəzən tamamilə müdafiəsiz vəziyyətdə qalır. Bir qayda olaraq ailənin mənzili, evi evlilik rəsmiləşənə qədər əldə edilir, yaxud kişinin valideynlərinin sərəncamında olur. Qadın əmlaka iddia edə bilmir, uzun illər evdar qadın kimi fəaliyyəti isə onun əlverişli iş tapmasını çətinləşdirir, pensiyaya çıxdıqda isə yalnız yaşa görə pensiyaya ümid edə bilir. Nikah müqaviləsi bağlanması halları isə çox azdır. Hökumət bu real problemləri nəzərdən keçirməli və çıxış yolları tapmalıdır. Problemin həlli məqsədilə biz hər iki mövqe sənədini və mikrotədqiqatların nəticələrini ”Şəfffalıq Azərbaycan”, Azərbaycan Açıq Platformasının saytlarında yerləşdirmişik. Bu sənədlər və tədqiqat nəticələri ilə əlaqədar müvafiq dövlət orqanları ilə müzakirələri də davam etdirəcəyik. Məqsəd budur ki, boşanma mərhələsində qadınların hüquqi sistemə çıxışı tam təmin edilsin. İşin və vəziyyətin mürəkkəbliyindən asılı olaraq boşanma qadın üçün emosional və psixoloji baxımdan çox yorucu bir prosesdir. Çalışmaq lazımdır ki, boşanmalar zamanı qadınların sosial təminatı üçün uğurlu nəticə əldə edilsin. Qadının hüquqları pozulmasın və sarsılmasın. Çünki qadınlar bu mərhələdə xeyli çətinliklərlə qarşılaşırlar. Bu kimi halların baş verməsinin bir səbəbi də qadınların öz huquqları barədə kifayət qədər məlumatlı olmamasıdır. Bu məsələdə qadınların hüquqi maariflənməsinə ehtiyac var.

**Məlahət Rzayeva**

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə çap olunub**




# Məzarında rahat yat, Ey Qəhrəman oğul!

## Mübariz İbrahimov Vətənin, insanların yaddaşına öz qanı, cəsarəti ilə tarix yazdı

**Dünən Azərbaycan Ordusunun giziri, Milli Qəhrəman, xalqın igid balası Mübariz İbrahimovun ad günü idi. Cəmi 22 yaşındaykən adını Vətənimizin tarixinə, insanların yaddaşına öz qanı, cəsarəti ilə yazan Mübariz yaşasaydı, 35-ci yaş gününü qeyd edəcəkdi. Amma o, öz ölümü ilə ölümsüzlük mərtəbəsinə yüksəlməyi seçdi.**

O, igidliyi, mərdliyi, vətənpərvərliyi, cəsur və məğrurluğu ilə onu tanıyan hər kəsin yadında silinməz olaraq qaldı. Adı kimi vətənin hər qarış torpağı uğrunda son nəfəsinə kimi mübarizə apardı və Mübariz İbrahimov adını əbədi olaraq yaddaşlarda həkk etdi. Qəhrəmanlıq nümunələri ilə zəngin olan tariximizi növbəti dəfə yenilədi. Onun haqqında filmlər çəkildi, ölkəmizin müstəqilliyi uğrunda canından keçən bir çox igidlərimiz onu öz idealına çevirdilər. 22 yaşlı gənc Azərbaycan hərbçisinin döyüş ruhunu və bacarığını dünyaya göstərdi. Onun qəhrəmanlıqları Azərbaycan vətəndaşlarında, ordusunda özünəinamı artırdı. Məhz Mübariz illərlə erməni ordusu barədə yaradılan mifin dağılmasının başlanğıcını qoydu. Onun cəsarəti və şücaəti 2020-ci ilin sentyabrın 27-də başlanan 2-ci Qarabağ müharibəsi zamanı daha geniş miqyasda təkrarlandı. Mübarizin qəhrəmanlıqları barədə söhbətlər, dərsliklərdəki mövzularla tərbiyələnən gənclik 44 günlük Vətən müharbbəsində onun uğruna can verdiyi torpaqlarımızı işğaldan azad etdi.

13 il əvvəl Mübarizin yazdığı məktubu dillər əzbəri edən uşaqlar böyüyüb Vətən torpağını düşmən tapdağından azad etdilər.

Qeyd edək ki, şəhidlik zirvəsində əbədiyyətə qovuşmuş Mübariz İbrahimov 1988-ci il fevralın 7-də Biləsuvar rayonunun Əliabad kəndində anadan olub. 1994-cü ildə şəhid M.Piriyev adına Əliabad kənd orta məktəbinin 1-ci sinfinə daxil olaraq 2005-ci ildə orada orta təhsilini başa vurub.

Həmin il həqiqi hərbi xidmətə çağırılıb. Əsgəri xidmətini Daxili Qoşunların ”N” saylı hərbi hissəsinin Xüsusi Təyinatlı Bölüyündə keçirib. Həqiqi hərbi xidmətini 2007-ci ildə çavuş rütbəsində başa vurub.

Bir müddət mülki işlərdə işlədikdən sonra 2009-cu ilin avqust ayında yenidən gizir rütbəsində hərbi xidmətdə çalışmağa başlayıb. Bir müddət sonra öz arzusu ilə cəbhə bölgəsindəki hərbi hissələrdən birində xidmət etməyə başlayıb.

Təsdiq edilməmiş versiyalara görə, 19 iyun 2010-cu il tarixində gecə saat 23:30 radələrində gizir Mübariz İbrahimov təkbaşına iki ordu arasındakı bir kilometrlik minalanmış sahəni keçib. Ermənistan silahlı qüvvələrinin çox sayda əsgər və zabitini gözlənilməz birinci həmlədə məhv edib. Sonra isə düşmənin öz silahlarından özlərinə qarşı istifadə edərək 5 saat onlarla təkbətək döyüşüb. Düşməni ağır itkilərə məruz qoyub, onların zəif cinahlarını üzə çıxarır. Azərbaycan döyüşçüsü səhər saatlarında qeyri-bərabər döyüşdə qəhrəmancasına şəhid olub.

Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycan Milli Ordusunun giziri Mübariz Ağakərim oğlu İbrahimova ”Azərbaycanın Milli Qəhrəmanı” adının (ölümündən sonra) verilməsi barədə sərəncam imzalayıb. Şəhid gizirə bu ad Azərbaycan Respublikasının müstəqilliyinin və ərazi bütövlüyünün qorunub saxlanılmasında müstəsna xidmətinə və göstərdiyi rəşadətə görə verilib.

Məzarında rahat yat, Ey Qəhrəman oğul!

**Şəymən**

# İnsanların təhsil hüququ təmin olunacaq

## Xarici dövlətlərdə ali təhsil alanların diplomlarının tanınması qaydalarının dəyişməsi inqilabi hadisədir



**Xarici dövlətlərin səlahiyyətli orqanları tərəfindən verilən və verildiyi ölkədə ali təhsil pilləsinə qəbul olunmaq və ya ali təhsilin növbəti səviyyələri üzrə təhsilini davam etdirmək və (və ya) ixtisasına uyğun əmək fəaliyyəti ilə məşğul olmaq hüququ verən, həmçinin şəxsin müvafiq standartlara uyğun bilik, bacarıq, səriştə və təcrübəyə malik olduğunu təsdiq edən təhsil haqqında sənədlərin Azərbaycan Respublikasının ərazisində qüvvədə olmasının təsdiqinə (tanınma) dair tələblər müəyyənləşib.**

Bu, Nazirlər Kabinetinin ”Xarici dövlətlərin ali təhsilə aid kvalifikasiyalarının tanınması qaydası”nda əksini tapıb. Yeni qaydaya əsasən, tanınma akademik və peşə kimi növlərə bölünür. Şəxs müraciətində tanınmanın məqsədini göstərməlidir.

**Təhsil eksperti Kamran Əsədov isə ”Şərq”ə açıqlamasında deyib ki, xarici dövlətlərdə ali təhsil alanların diplomlarının tanınması qaydalarının dəyişməsi inqilabi hadisədir:** ”Bu, kifayət qədər müsbət dəyişiklikdir və insanların təhsil hüququnun təmin olunmasıdır. Dəyişikliyə görə, tədris dili üzrə bilik səviyyəsinin qiymətləndirilməsi məqsədilə təşkil olunan müsahibə mərhələsi ləğv olunub.

Yəni daha təhsil aldığınız dildən imtahan verməyəcəksiniz. Bu çox yaxşı haldır. Amma əvəzində bəzi ixtisaslar üzrə Dövlət İmtahan Mərkəzi tərəfindən həmin peşə ixtisasları üzrə təşkil olunan qiymətləndirmə imtahanlarında iştirak etməlidirlər. Eyni zamanda səhiyyə və tibb peşə sahələri üzrə ixtisasların qiymətləndirilməsi zamanı Səhiyyə Nazirliyinin rəyinin alınması da nəzərdə tutulub. Bu, doğru addımdır. Təhsil Nazirliyi bunu yoxlaya bilməzdi”.

Ekspertin sözlərinə görə, təhsilalanın hər bir tədris ili ərzində müvafiq ixtisas üzrə nəzərdə tutulmuş təhsilin normativ müddətinin yalnız yarısı qədər təhsil aldığı ölkənin ərazisində olması tanınma haqqında müsbət rəy üçün kifayət hesab ediləcək. Yəni əvvəllər qiyabi təhsil alan mütləq şəkildə semestr ərzində 15 gün, əyani təhsil alan 90 gün olmalı idisə, indi bu rəqəm yarıya qədər azaldılıb ki, bu da çox yaxşı dəyişiklikdir: ”Daha xarici ali təhsil müəssisələrinin rus, ingilis və türk dillərində təqdim etdikləri təhsil sənədlərinin notarial qaydada tərcümə olunmuş təsdiqinə ehtiyac olmayacaq. Müvafiq ali təhsil səviyyəsi üçün müəyyən edilmiş minimal kredit sayını toplamayan və (ya) dissertasiya işi yazmayan (magistratura pilləsi üzrə) şəxslərin ali təhsil kvalifikasiyalarının şərti tanınması həyata keçiriləcək. Belə ki, həmin şəxslər yerli ali təhsil müəssisələrinin birində çatışmayan kreditləri toplamalı (praktik dərslərdə) və (ya) magistr dissertasiyası hazırlayaraq müdafiə etməli olacaqlar. Şərtlər yerinə yetirildikdə həmin şəxslərin ali təhsil kvalifikasiyalarının tam tanınması mümkün hesab ediləcək. Həmçinin xarici dövlətdə natamam ali təhsil almış şəxslərin ali təhsil kvalifikasiyalarının qismən tanınması həyata keçiriləcək. Başqa sözlə, həmin şəxslərin ali təhsil kvalifikasiyaları üzrə xaricdə toplanmış kreditlərinin tanınması həyata keçiriləcək və onlara qismən tanınma haqqında müvafiq sənəd təqdim olunacaq. Nəticə etibarilə, vətəndaşlar təhsillərinin qalan hissəsini Azərbaycan Respublikasının ali təhsil müəssisələrinin birində davam etdirmək üçün müraciət etmək hüququna malik olacaqlar”.

**Şəymən**

# Əksər yaşayış binalarında və fərdi həyət evlərində çıxarış yoxdur

## Daşınmaz əmlakın icbari sığortasına mane olan cəhətlərdən biri məhz çıxarışsız mənzillərdir



**Daşınmaz əmlakın yanğın və ya digər hadisələr nəticəsində zədələnməsi, məhv olması ilə bağlı dəyən zərərin əvəzinin ödənilməsi üçün sığorta sisteminin tətbiq olunması geniş yayılıb. Bəs sənədsiz evlərin icbari sığortası ilə bağlı problem necə həll ediləcək?**

İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində "Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri"nin İdarə Heyətinin sədri Nigar Alimova məsələ ilə bağlı APA-ya bildirib ki, icbari sığorta ilə məşğul olan həm dövlət, həm də özəl sektor qurumları elektron informasiya resursundan tam istifadə edəcəklər.

Onun sözlərinə görə, ölkədə qeydiyyata alınmamış tikililərin tənzimlənməsi iqtisadi sahədəki, eləcə də vətəndaşların hüquq və mənafeləri ilə bağlı bir çox məsələnin həllinə töhfə verəcək: "Evlərin sənədləşdirilməsi, vətəndaşların qeydiyyatı, evlərin sığortalanması, alqı-satqısı, vərəsəlik, ipoteka kimi bir çox sahələrdəki problemlərin avtomatik olaraq həll olunmasına şərait yaradacaq".

**Əmlak məsələləri üzrə ekspert Elnur Fərzəliyev isə hesab edir ki, daşınmaz əmlakın icbari sığortası sahəsində nəzarəti zəruri edən məqamlar var:** "Bu gün çox ciddi şəkildə artan, böyük bir yaşayış fondumuz var. Hər hansı təbii fəlakət, yaxud fors-major halları baş verərsə, artıq mənzilləri sığortalanmış vətəndaşların kompensasiyasını  dövlət qurumları deyil, sığorta şirkətləri qarşılayacaq. Bunun yaxşı tərəfi ondan ibarətdir ki, dəymiş zərəri qiymətləndirən zaman vətəndaş sığorta şirkətinin hesabatı ilə razılaşmadıqda, hər hansı mütəxəssisə müraciət edib dəymiş zərəri hesablatdıra bilər".

***"Özbaşına tikinti sayılan daşınmaz əmlak, sökülməsi barədə qərar qəbul edilmiş, eləcə də, tikintisi başa çatmayan və qəzalı vəziyyətdə olan daşınmaz əmlak icbari sığortaya cəlb olunmur"***

**Ekspertin sözlərinə görə, hüquqi və fiziki şəxslərə məxsus tikililərin, yaşayış və qeyri-yaşayış sahələrinin, yaşayış evləri, binalarının və mənzillərin, habelə dövlət əmlakının sığortası icbaridir:** "Daşınmaz əmlakın icbari sığortası qeyd olunan hər hansı daşınmaz əmlakı olan və ya ona faktiki sahibliyi həyata keçirən şəxslərə aid edilir. Özbaşına tikinti sayılan daşınmaz əmlak, sökülməsi barədə qərar qəbul edilmiş, eləcə də, tikintisi başa çatmayan və qəzalı vəziyyətdə olan daşınmaz əmlak icbari sığortaya cəlb olunmur. Eyni zamanda yaşayış binasının qeyri-yaşayış sahələrinin icbari sığorta etdirilməsi tələb olunmur".

**E.Fərzəliyev bildirir ki, daşınmaz əmlakın icbari sığortasına mane olan cəhətlərdən biri çıxarışsız mənzillərdir. Əksər yaşayış binalarında və fərdi həyət evlərində çıxarış yoxdur. Çıxarışı olmayan mənzillər sığorta şirkətləri tərəfindən sığortalanmır:** "Bu sahədə əsas problem kirayə mənzillərlə bağlı yaranır: "Dəfələrlə şahidi olmuşam ki, bir mənzil kirayə verilib, kirayədə qalanlar tərəfindən evə ciddi zərər dəyib. Hətta yanğın hadisələri də olub. Burada məhkəmə çəkişməsi olsa belə, bir ortaq məxrəcə gələ bilməyiblər. Çünki  kirayənişinlə kirayə verən arasında rəsmi notarial müqavilə olmadığına görə, aralarında öhdəlik olmadığına görə bu problemlər öz həllini tapa bilməyib. Həm də əsas məsələ evin sığortası olmadığına görə bu cür problemlər yaşanır. Sığorta olarsa, belə çəkişmələr də olmaz. Hansısa hadisə zamanı sığorta şirkəti dəymiş zərəri qarşılayır".

**Şəymən Bayramova**



## Endokrinoloq açıqladı

### Şəkər xəstəliyinin şirniyyat yeməklə əlaqəsi yoxdur

**Şirin qidalar və un məmulatları yemək şəkərli diabetin yaranmasında əsaslı rol oynamır. Yəni şəkər yeməsən diabet olmayacaqsan fikri yanlışdır.**

"Medicina" xəbər verir ki, bu barədə endokrinoloq Valentin Fadeyev məlumat verib. "Şirin yeməkdən diabet əmələ gəlməsi mifdən başqa bir şey deyil. I tip diabet insulin defisitindən yaranır, mədəaltı vəzinin hüceyrələrinin ölümündən qaynaqlanır. II tip diabetin əsas səbəbi piylənmədir. Piylənmənin arxasında isə təkcə şirinə meyillilik yox, ümumiyyətlə normadan artıq yemək, çox yeməyə aludəçilik və zərərli vərdişlər durur.

Əgər bir insan şirniyyat sevmirsə, az yeyirsə, amma digər yeməkləri, yağlı qidaları yeyib, emal olunmuş hazır qidalar, alkoqol qəbul edirsə, onda artıq çəki yaranır. Bu adamlar şəkər xəstəsi olur. Məsələn, daha çox kişilərin şəkər olmasının səbəbi yağlı yemək, az hərəkət, içkidir. Diabet infeksion xəstəlik deyil, onun yaradıcısı irsi meyillik və çox yeməkdir".

## Mədəsi xəstə olanlar üçün

### Rusiyada kömürlü qara pendir hazırlandı



**Orqanizmdən toksinləri çıxara bilən pendir növü istehsal olunub.**

Bakupost.az xəbər verir ki, Rusiya Biotexnoloji universitetin alimləri qara mərmər pendir əldə edib. Pendirə aktivləşdirilmiş kömür qatılıb.

Onlar bildirib ki, bu məhsul xüsusi istiqamətlidir, müalicəvidir.

"Bu pendir orqanizmi, mədə-bağırsaq sistemini təmizləyir, bütün orqanizmə müalicəvi təsir edir.

Pendirdə olan kömür toksin, zərərli maddə, qazları çıxarır, diareyanın qarşısını alır, köpü götürür.

Qara kömür pendirin dadını dəyişmir, pendir həmişəki qaydada sadəcə pendirdir.

Qiyməti də adi pendirdən çox fərqlənməyəcək. Pendirin reseptində təbii, yerli inqridiyentlərdən istifadə olunub.

Kütləvi istehsal üçün güclü istehsalat avadanlığı olan müəssisəyə ehtiyac var".

# Ağrılar bəzən günlərlə davam edir

## Baş ağrısının ən sıx yayılmış növü gərginlik tipli baş ağrılarıdır



***Səhiyyə Nazirliyinin mütəxəssis-eksperti, həkim-nevroloq Mərziyə Məmmədova nazirliyin sosial media hesablarına baş ağrıları ilə bağlı gələn sualları cavablandırıb.***

**- Mərziyə xanım, bilmək istərdik ki, müraciət edən xəstələr ən çox hansı növ baş ağrılarından şikayətlənirlər?**

- Bəlkə də dünyada elə insan yoxdur ki, həyatında heç olmasa bir dəfə başı ağrımasın. Əsasən baş ağrıları başın birtərəfli, yaxud ikitərəfli nəbzvari, deşici ağrısı ilə, başın gicgah, təpə, ənsə nahiyələrində olan sıxıcı, basıcı ağrıları, başın üz nahiyəsində olan müxtəlif xarakterli ağrılar ilə, eləcə də, ürəkbulanma, başgicəllənmə, halsızlıq, iylərə, işığa, səsə qarşı həssaslıq şikayətləri ola bilər. Bu şikayətlərə və ətraflı anamnezə (xəstəlik tarixçəsi) əsasən baş ağrı üzrə ixtisaslaşmış nevroloqlar düzgün diaqnoz qoya bilər. Bəzən baş ağrılarının səbəbi olmur, burda bir çox ətraf mühit və yaxud genetik faktorlar rol oynaya bilər. Belə baş ağrıları birinci baş ağrıları adlanır. Bu diaqnozu təsdiq etmək üçün nevroloq mütləq müvafiq instrumental və laborator müayinə metodlarını seçə bilər ki, bu zaman ikincili səbəblər, yəni ikincili baş ağrısı inkar edilsin. Amma pasientlər unutmamalıdır ki, baş ağrısı müayinə və müalicə tələb edən ayrıca bir xəstəlikdir.

**- Baş ağrıları hansı xəstəliklərin simptomları ola bilər?**

- Birincili baş ağrısının ən sıx yayılmış növü gərginlik tipli baş ağrıları, miqren və müxtəlif sefalalgiyalardır. Gərginlik tipli baş ağrılarının əsas simptomları kəllənin ətrafında yayılmış basıcı, sıxıcı ağrılardır, onlar adətən ümumi məişət aktivliyinə çox təsir etmir. Miqren baş ağrılarının isə aura ilə müşayiət olunan və olunmayan növləri var. Aura adətən baş ağrılarından öncə başlaya və qısa müddətdən sonra baş ağrısına keçə bilər. Bu zamanı pasientlərin gözlərində qığılcımlar, parlaq işıqlar, qoxu və səs hallüsinasiyaları, üzdə və ətraflarda qarışqa gəzintisinə bənzər və keyləşmə kimi hissiyat pozuntuları müşahidə edilir. Miqren zamanı baş ağrı yüngüldən çox şiddətli ağrılara qədər arta bilər. Davamlı, yaxud tutma şəkilli, bəzən isə günlərlə çəkə bilər. Dayanmadan olan baş ağrıları "miqreniz status" adlanır və təcili tibbi yardım tələb edir.

Sefalalgiyalar zamanı deşici və həddən artıq şiddətli ağrılar ola bilər və pasientə əzab verə bilər.

**- Miqrenin yaranma səbəbi nədir və xəstəliyin müalicəsi varmı?**

- Hazırda miqrenin tam yaranma səbəbinin araşdırılması üzərində aktiv tədqiqatlar gedir. Ən çox yayılmış nəzəriyyələrdən biri beyin damarların spazmı ilə əlaqəli olduğuna əsaslanır. Əlbəttə ki, irsi meyillilik mövcuddur, xüsusilə qadınlar arasında daha çox rast gəlinir. Bu səbəbdən valideynlər əgər baş ağrılardan əziyyət çəkirsə, yüksək ehtimal ilə onların övladlarında da hansısa bir baş ağrı növü qeyd edilə bilər.

Baş ağrılarının müalicəsində medikamentoz müalicə ilə yanaşı, həm də qeyri-medikamentoz müalicə üsullarından da istifadə olunur. Qeyri-medikamentoz müalicə üsulunda əsasən həyat tərzinin dəyişdirilməsi tövsiyə olunur. Belə ki, sağlam həyat tərzinin formalaşmasında insanın sağlamlığına müsbət təsir edən amillərin, xüsusilə gündəlik iş rejiminin, səmərəli qidalanmanın, normal yuxu rejiminin böyük təsiri var.

Medikamentoz müalicə isə kəskin baş ağrılarının idarəedilməsi və preventiv metodlardan ibarətdir. Kəskin baş ağrıları zamanı müxtəlif ağrıkəsicilərdən istifadə edilir. Bunlardan əksəriyəti reseptsiz buraxıldığı üçün pasientlər asanlıqla



apteklərdən əldə edə bilirlər. Pasientlərdə ağrılar dözülməz olduğu təqdirdə onlara preventiv müalicə təyin edilir. Burada xüsusi və yalnız reseptlə buraxılan dərmanlar qeyd olunur.

**- Dəyişkən hava şəraiti baş ağrısına səbəb ola bilər?**

- Meteohəssaslıq adlanan bu vəziyyət ümumi mərkəzi sensitivlik sindromlarına aiddir. Bu sindromlar siyahısına həmçinin miqren ağrıları da aiddir. Bu zaman sindromdan əziyyət çəkənlərdə normadan artıq həssaslıq müşahidə olunur. Eyni zamanda müxtəlif qıcıqlar, ətraf mühitdə baş verən dəyişikliklər və stresə qarşı reaksiya çox olur.

**- Bəzən insanlar baş ağrısı üçün aptekdə olan adını belə bilmədikləri ağrıkəsiciləri alıb içirlər. Bu, nə dərəcədə doğrudur?**

- Bu, tamamilə yanlış addımdır. Çünki həkim təyinatı olmadan satılan dərmanların həddindən artıq istifadəsi əslində əks təsirə səbəb ola bilər. Yəni baş ağrıları daha da güclənə bilər. Belə pasientləri müalicə etmək çətindir, çünki onlar minimal ağrı belə olanda dərhal dərman alıb içirlər. Lakin əsas diqqət yetirməli olduqları səbəbləri isə aradan qaldırmırlar.

Belə pasientlər mütləq maarifləndirilməli və preventiv uzunmüddətli müalicəyə alınmalıdırlar. Əlbəttə ki, həkimin tövsiyələrinə riayət edən şəxslərdə uzunmüddətli remissiya əldə etmək olur və ağrıların intensivliyi, şiddəti azalır, yaxud uzun illər özünü büruzə vermir.

## Azərbaycanda bir aya ən çox xəstə qəbul edən həkim o oldu



**Yanvar ayı ərzində icbari tibbi sığorta ilə ən çox xidmət göstərmiş həkimin adı açıqlanıb**

"Medicina" xəbər verir ki, icbari tibbi sığorta ilə ən çox xidmət göstərmiş travmatoloq-ortoped Gəncə Şəhər Birləşmiş Xəstəxanasının həkimi Adil İbrahimli olub.

Qış ayları olduğu üçün travmalar, oynaq dayaq hərəkət aparatı ilə bağlı şikayətlər çox olur.

İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə istinadla xəbər verir ki, icbari tibbi sığorta ilə heç bir ödəniş etmədən travmatoloq-ortopedin qəbuluna yazılırlar.

## 48 azərbaycanlı saxlanılıb

### Rusiyada polis kriminal avtoritetlərə qarşı əməliyyat keçirib

**Moskva yaxınlığındakı Mıtişi şəhərində kriminal avtoritetlərin yığıncağına polis müdaxilə edib.**

APA-nın Rusiya bürosu yerli KİV-ə istinadən xəbər verir ki, xüsusi təyinatlı polis dəstələri olan SOBR və OMON-un əməkdaşları qanunsuz silah və narkotik vasitələrin ticarəti ilə məşğul olan 50-dən çox şəxsi saxlayıblar. Saxlanılanlardan 48 nəfərin Azərbaycan, 4-ü Ermənistan, Tacikistan və Dağıstandan olduğu bildirilib.

Onlardan cinayət fəaliyyətində iştiraklarının yoxlanılması üçün barmaq izi götürülüb.

Bundan əlavə, saxlanılanların üzərində "Sayqa" karabini, beş travmatik tapança və bıçaq aşkarlanıb.

## TƏBİB: Serebral iflic yeni tibbi xidmətlər zərfinə daxil edilib



**Yeni tibbi xidmətlər zərfinə serebral iflic xəstəliyi ilə bağlı xidmətlər daxil edilib.**

Bunu "Yeni klinika" tibb müəssisəsinin təşkilatçılığı ilə keçirilən "Serebral iflic və cəmiyyət" mövzusunda forumda TƏBİB-in icraçı direktorunun müşaviri Pərvin Əkbərov deyib.

Onun sözlərinə görə, serebral iflic xəstəliyi bütün dünyada diqqətdə saxlanılan sindromdur: "Bu xəstəlik uşaqlarda ana bətnində yarandığına görə hamiləlik dövründən diqqətdə saxlanılması vacibdir. Regionlarımızda reabilitasiya mərkəzlərinin yaranması üçün çalışırıq.

Yeni xidmətlər zərfinə serebral ifliclə bağlı xidmətlər daxil edilib. Rayonlarda yaşayanlar da bu xidmətdən yararlana biləcəklər". O qeyd edib ki, bu gün dünyada 1000 uşaqdan 2-si serebral ifliclə doğulur.

**Elanlar**

Məmmədov Rövşən Oktay oğluna məxsus Blackberry MMC-yə aid möhür itdiyi üçün etibarsız sayılır.

Həsənov Elmar Tələt oğluna məxsus zabitin şəxsi vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Əliyev Alpay Əmir oğluna məxsus Abşeron rayonu, Xırdalan şəhəri, AAAF-Park MMC, 26-cı məhəllə, ev 199, 0222 saylı 14 aprel 2016-cı il tarixli müqavilə itdiyi üçün etibarsız sayılır.

Təsisçi və baş redaktor:  Akif Aşırlı
Baş redaktorun ı müavini: Yusif Nəzərli
Redaktor:  Ayyət Əhməd

Reportyorlar qrupu:
Məlahət Rzayeva, Şəymən Bayramova, İsmayıl Qocayev, Aygün Tahir, Nihat Müzəffər, Sücayət Mehti

Texniki heyət:
Rüfət Dadaşov, İmamcan Əliyev, İlahə İbrahimova, Nailə Cabbarlı, Fazilə Məmmədova

Qəzet "Şərq"in kompyuter mərkəzində yığılır, səhifələnir və "Azərbaycan" nəşriyyatında çap olunur

Qəzet Mətbuat və İnformasiya Nazirliyində  qeydə alınıb.
Lisenziya: 535
www.sherg.az
e-mail: sherq-1996@mail.ru

Ünvan: Mətbuat prospekti, "Azərbaycan" nəşriyyatı.
Telefon: 447-32-41
538-44-50, internet 538-44-15,
İndeks:  AZ1073

Hesab nömrəsi:
"Muğanbank" ASC baş ofis
Kod: 506162
VÖEN: 1400122681
M/H: AZ41NABZ01350100000000018944
S.W.İ.F.T.: MUGAAZ22
AZM hesab nömrəsi: AZ76MUGA400603803000225AZM00
VÖEN 1300414651 İndeks: 0330

Tirajı: 1550 Sifariş: 377


DAILY Mirror
Newspaper of the Year
Tuesday, February 7, 2023 £1.20 (96p to subscribers)
City in the dock
NURSES: We fear end for our NHS
SEE PAGES 6&7
Staff shortages cost lives
Champs charged with 100 breaches of financial rules
Leeds sack boss Marsch
SEE SPORT
THOUSANDS DIE IN QUAKE HELL
Moment of hope amid the horror
BY CHRIS HUGHES
PLUCKED alive from a Syrian building, a rescued girl brings a ray of hope in the hell of yesterday's killer quake.
More than 3,500 people have died across Turkey and Syria but experts fear the toll could hit 10,000. One British rescuer said: "I can only describe it as armageddon."
FULL STORY: PAGES 4&5
SURVIVOR Child is carried away yesterday
» Fears death toll will rise to 10,000 as Turkey and Syria are devastated
» Race against time to save trapped after hundreds of buildings collapse

## "Əsrin ən güclü zəlzələsi"

### Türkiyədə baş verən zəlzələ dünya mediasının manşetlərində

**Kahramanmaraşda 9 saatlıq fasilə ilə baş verən 7,7 və 7,6 bal gücündə iki zəlzələ indiyədək 10 vilayətdə 3519 nəfərin həyatına son qoyub.**

"Şərq" xarici mediaya istinadən xəbər verir ki, Suriyada ölənlərin sayı 1500-ü keçib. Hər iki ölkədə axtarış-xilasetmə işləri davam edir. Zəlzələlər dünya mediasının manşetlərinə daşınıb. Qəzetlər xilasetmə qruplarının fədakar səylərini əks etdirən şəkilləri manşetlərinə çıxararaq bunu "əsrin ən güclü zəlzələsi" kimi qiymətləndiriblər.

## Ananın fəryadı...

### "Qızıma ev yox, məzar almışam"




**Kahramanmaraşın Hayrullah məhəlləsində Şeyma Şimşək adlı gənc qadın 2 gün əvvəl köçdüyü yeni evinin dağıntıları altında qalıb. Anası Nalan Şimşək dağıntıların başında göz yaşı tökərək qızının sağ-salamat çıxarılmasını gözləyir.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, ağrılı ana 3 gün əvvəl evi qızına hədiyyə etdiyini və qızının evdə ancaq iki gecə qala bildiyini söyləyərək, "Qızıma ev yox, qəbir almışam", - deyib.

Qızının özəl bankda işlədiyini deyən Nalan Şimşək "Ona evi 3 gün əvvəl almışam. İki gün əvvəl köçüb. Zəlzələdən əvvəl mənə zəng edib evi göstərdi. Mənə də yataq dəsti aldığını deyərək sürpriz etmək istəyirdi. Duş qəbul edib yatmağa hazırlaşacağını söylədi. Qızım itdi, qızıma məzar aldım, ev yox, almamalıydım", - deyə fəryad edib.

Hayrullah məhəlləsinin dron görüntüləri dağıntının böyüklüyünü ortaya çıxarıb.

**Turan**

## 24 saat dözdü

### 14 yaşlı Can dağıntılar altından xilas edildi



**Türkiyənin 10 vilayətində baş verən 7,7 və 7,6 bal gücündə zəlzələlərdə çoxlu bina dağılıb.**

"Şərq" türk mediasına istinadən xəbər verir ki, Kahramanmaraşda zəlzələ nəticəsində dağıntılar altında qalan 14 yaşlı Can adlı uşaq 24 saatdan sonra çıxarılıb.

Can 24 saat sonra Trabzon küçəsində dağılmış evin dağıntıları altından xilas edilib.



# 31 saat sonra gələn möcüzə

## 15 aylıq Meryem İşık xilas edildi

**Bazar ertəsi, fevralın 6-da Kahramanmaraş iki güclü zəlzələ ilə silkələndi. İlk zəlzələ saat 04:17-də Pazarcık rayonunda 7,7 bal gücündə baş verib. Bu 7,7 bal gücündə zəlzələdən sonra saat 13.24-də növbəti zəlzələ baş verib. Episentri Elbistan rayonunda olan zəlzələnin maqnitudası 7,6 bal olub.**

Zəlzələ, Kahramanmaraş, Kilis, Diyarbəkir, Adana, Osmaniye, Qaziantep, Şanlıurfa, Adıyaman, Malatya və Hatayda böyük dağıntılara səbəb olub. Zəlzələnin baş verdiyi əyalətlərə çoxlu sayda axtarış-xilasetmə qrupu göndərilib. Zamanla yarışın davam etdiyi şəhərlərdən ümidverici xəbərlər var... Kahramanmaraşda baş verən zəlzələlərdən sonra Menderes rayonunda dağılan binanın dağıntıları altından 15 aylıq körpə xəstəxanaya aparılıb.

Menderes rayonunda aparılan işlərdən şad xəbər gəlib. Köker məhəlləsindəki 10 mərtəbəli binanın dağıntılarından eşidilən səslərə diqqət çəkən qruplar, təxminən 31 saatdır dağıntılar altında qalan 15 aylıq Məryim İşıkı xilas ediblər.

Dağıntılar altından çıxarılan və ilkin tibbi yardım göstərilən körpə təcili yardım maşını ilə xəstəxanaya aparılıb. Körpənin anası Məryəmin də dağıntılar altında olduğu xəbəri ilə əlaqədar qruplar eyni yerdə işlərini davam etdirir.

Hatayın Odabaşı məhəlləsində 30 yaşlı Hülya Yılmaz və 6 aylıq körpəsi Ayşe Vera Yılmaz 29 saat sonra dağılmış binanın dağıntıları altından xilas edilib. Ana Yılmaz və körpəsi müalicə üçün xəstəxanaya aparılıb. Hatayda baş verən zəlzələdən 29 saat sonra 2 aylıq Mehmet Çınar adlı körpə də dağıntılar altından diri çıxarılıb. Hatayın mərkəzində axtarış edən qruplar, bir binadan səs gəldiyini təsbit edib. Bunun üzərinə təyin olunmuş binada işlərini intensivləşdirən qruplar, 2 uşağı sağ-salamat çıxarıblar. Böyük sevinc yaşanıb, uşaqlar təcili yardımla xəstəxanaya aparılaraq müalicə altına alınıb.

Malatyada çökmüş binanın altında qalan 3 yaşlı Miran 22 saat sonra dağıntılar altından sağ çıxıb.

Şəhərin mərkəzi Çavuşoğlu rayonunda 5 mərtəbəli yaşayış binasının dağıntıları altında qalan 3 yaşlı Miran Tekeş və 26 yaşlı Abdulla Uraz aparılan işlər nəticəsində 22 saat sonra dağıntılar altından xilas edilib.

**Turan**







# "Ürəyim sizinlədir"

## Dünyaca məşhur sənətçilər Türkiyəyə dəstək mesajları yazıb

**Kahramanmaraşın Pazarcık rayonunda baş verən zəlzələ 10 vilayətdə çoxlu sayda insanın ölümünə səbəb olub. Dünya şöhrətli aktyorlar Rassel Krou, Dua Lipa və Mark Eliyahu da daxil olmaqla bir çox sənətçi zəlzələdən sonra sosial mediada Türkiyəyə başsağlığı mesajları yazıb.**

**Yevgeni Qrinko**

"Kahramanmaraşda baş verən və ətraf vilayətləri də əhatə edən zəlzələ üçün çox üzgünəm. Həyatını itirənlərə başsağlığı, yaralılara isə tezliklə şəfa diləyirəm. Ürəyim sizinlədir".

**Ellen Degerens**

Ellen Degeneres isə instaqram hesabında zəlzələ nəticəsində Türkiyə və Suriyada minlərlə insanın həyatını itirdiyini, minlərlə insanın dağıntılar altından xilas olunmağı gözlədiyini paylaşaraq, beynəlxalq zəlzələdən zərər çəkənlərə yardım göstərilməsini istəyib.

**Antonio Banderas**

"Türkiyə və Suriya xalqlarını qucaqlayıram. Son bir neçə saat ərzində onlar təsvirolunmaz faciə yaşadılar. Hamısına səbr diləyirəm".

**Rassel Krou**

"Ay, Türkiyə. Ürəyim. Xəbər dəhşətlidir".

**Dua Lipa**

Alban əsilli müğənni Dua Lipa instaqram hesabından Kahramanmaraşdakı zəlzələdən sonra Türkiyəyə yardım göndərmək istəyən izləyiciləri üçün mesaj paylaşıb.

**Monava**

"Türkiyə və Suriyada baş verən böyük zəlzələ ilə bağlı kədərimizi paylaşırıq. Həyatını itirənlərin ailələrinə başsağlığı, yaralılara isə güc diləyirik".

**Mark Eliyahu**

"Ürəyim sizinlədir".

**Mark Ruffalo**

"Yardım etmək istəyənlər axtarış və xilasetmə işləri aparan bu insanlara çata bilər".

**Jey Jay Johanson**

"Fikrim Türkiyədəki dostlarımdadır".

**Karsu Dönməz**

Hollandiyalı türk müğənni Karsu Dönməz zəlzələ bölgələrinə yardımın yolda olduğunu açıqlayıb.

## "Nənəm də, xalam da sağdır"

### Melisanın dağıntılar altında qalan ailəsindən xəbər var



**Xəbər veridiyimiz kimi, Türkiyədə baş verən 7,4 bal gücündə zəlzələ nəticəsində dağıntılar altında qalan şəxslər arasında aktrisa Melisa Aslı Pamukun nənəsi və xalası da yer alıb.**

**Axşam.az xəbər verir ki, aktrisa saatlar sonra ailəsindən xəbər ala bildiyini açıqlayıb:**

**"Nənəm də, xalam da sağdır. Allaha şükür. Allah ölkəmizə kömək olsun".**

***Qeyd edək ki, Türkiyədə baş verən güclü zəlzələ nəticəsində ölənlərin sayı 3381-ə çatıb.***

## Məşhur aktyorun anası dağntılar altında qalıb



**Türkiyədə baş verən zəlzələ nəticəsində dağıntılar altında qalan şəxslər arasında aktyor Çağrı Çıtanakın anası da var.**

**Axşam.az xəbər verir ki, aktyor sosial şəbəkədə binalarının uçduğunu bildirərək yardım istəyib.**

**Qeyd edək ki, ötən gün gecə saatlarında Türkiyədə baş verən güclü zəlzələ nəticəsində ölənlərin sayı 1762-ə, yaralıların sayı isə 12 068-ə çatıb. Təbii fəlakət nəticəsində 5606 bina dağılıb. Kahramanmaraş vilayətində 7,7 və 7,6 bal gücündə iki zəlzələ baş verib.**

## Dağıntılar altında doğuldu

### Körpəsini dünyaya gətirdi, sonra öldü



**Episentri Kahramanmaraş olan 7,7 bal gücündə zəlzələ məlum olduğu kimi Türkiyəyə qonşu Suriyada da dəhşətli dağıntılara və insan tələfatına səbəb olub.**

Suriyanın İdlib, Hələb, Hama, Lazkiyə, Tartus və Rakka bölgəsi dağıdıcı zəlzələyə məruz qalıb. Hazırda bu bölgələrdə insan tələfatı 1600-ə çatıb. "Şərq" "NTV,com.tr"yə istinadən bildirir ki, dağıntılar altında qalmış bir qadınsa uşaq dünyaya gətirib. Bu ağlasığmaz hadisə Hələbdə yaşanıb. Xilasetmə qrupu yeni doğulmuş körpəni dağıntılar altından çıxarıb. Körpəsini dünyaya gətirən ananınsa doğuşdan sonra vəfat etdiyi məlum olub. Xilasedicilər körpəni xəstəxanaya çatdırıb. Körpənin həyatına təhlükə olmadığı bildirilib. Suriyanın şimalı təbii fəlakət bölgəsi elan edilib. Beynəlxalq humanitar təşkilatlardan təcili yardım etmələri xahiş olunur.

**Məlahət**

## Seren Serengilin sevgilisinin anası zəlzələdə həlak oldu



**Məşhur türkiyəli aparıcı Seren Serengilin sevgilisi Mustafa Tohmanın zəlzələ nəticəsində dağıntılar altında qalan anası həlak olub.**

Axşam.az xəbər verir ki, bu barədə Seren sosial media hesabında yazıb:

"Tohmanın anası həyatını itirdi. Hataydakı zəlzələdə evləri çökmüşdü. Atasını dağıntılar altından xilas etmək mümkün olsa da, mələk anası dayana bilmədi. Allah hər kəsə səbr versin".

## Petekkayanın qohumları da dağıntılar altındadır



**Türkiyədəki zəlzələ nəticəsində dağıntılar altında qalanlar arasında məşhur aktyor Erkan Petekkayanın yaxınları da var.**

Axşam.az xəbər verir ki, aktyor həyat yoldaşı Didemin yaxın qohumlarının dağıntılar altında qaldığını açıqlayıb. O, həmin şəxslərin adlarını və ünvanlarını yazıb. Yazılan ünvanla aktyor Çağrı Çıtanakın anasının yaşadığı bina ilə eynidir.

*Qeyd edək ki, Türkiyədə baş verən güclü zəlzələ nəticəsində ölənlərin sayı 3381-ə çatıb.*